QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 028 (5748) **12 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan sabit bir ölkə kimi regionda çox mühüm bir dövlətdir"

*Prezident İlham Əliyev Niderland-Azərbaycan Dostluq Qrupunun sədrini qəbul edib*



Səh 2

**Heydər Əliyev Fondu Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı göstərir**



3

**Yeni Sərəncamla hansı sahələr üzrə işçilərin əmək haqqı artacaq?**



5

**Millət vəkili: "Prezidentin apardığı uğurlu siyasət ilə Azərbaycanın qələbələri daha da artacaq"**



5

**Elman Nəsirov: "Freedom House" "Soyuq müharibə"nin tör-töküntüsüdür**



10

**"Sərəncam əhalinin rifah səviyyəsinin yaxşılaşdırılmasında növbəti addımdır"**



5

**Söyüş müxalifəti - kirli məqsəd və xəyanət məramı çoxdan bəllidir**



13

## "Səthlərin nanostrukturlaşdırılması" monoqrafiyası çapdan çıxıb

Bax 5

*Azərbaycan alimləri - Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev və Azərbaycan Milli Aviasiya Akademiyasının nəqliyyat mexanikası kafedrasının müdiri, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, texnika elmləri doktoru, professor Əhəd Canəhmədovun həmmüəllifləri olduqları "Səthlərin nanostrukturlaşdırılması" monoqrafiyası nəfis tərtibatda nəşr olunub. AZƏRTAC xəbər verir ki, əsər dörd bölümdən və ümumilikdə 320 səhifədən...*

## Kubanın Azərbaycandakı səfiri AZƏRTAC-ın ispan dili bölməsinin fəaliyyəti ilə tanış olub

Bax 10

*Kubanın Azərbaycandakı səfiri Alfredo Fidel Nieves Portoundo AZƏRTAC-da yeni fəaliyyətə başlayan ispan dilində informasiya bölməsinin işi ilə tanış olub. Diplomat bölmənin əməkdaşları ilə görüşüb, xəbərin ispan dilində təqdimatı, ispandilli auditoriya üçün Azərbaycanla bağlı maraqlı ola biləcək informasiyalar barədə fikir mübadiləsi aparıb. AZƏRTAC-ın ispan dilində xəbər yayımına başlamasını önəmli...*

## Gənc sərhədçilər Vətənə sədaqət andı içiblər

Bax 5

*Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə şəhərindəki hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dövlət himninin səslənməsi ilə başlayan mərasimdə gənc əsgərlər təntənəli şəkildə hərbi and içdikdən sonra tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbriki çatdırılıb. Mərasimdə ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd...*

12

**Əli Kərimlinin dələduz olduğu məhkəmədə sübuta yetirilməkdədir**



6

**KİVDF - 10 ilin uğurları**




7

**Dərs yükünün uşaq psixologiyasına təsiri nədir?**



# "Azərbaycan ilə Rusiya arasında ikitərəfli münasibətlər bütün sahələrdə uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Rusiyanın iqtisadi inkişaf nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Rusiya Federasiyasının iqtisadi inkişaf naziri, Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının həmsədri Maksim Oreşkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Maksim Oreşkinlə bu yaxınlarda Davosda keçirilən görüşü xatırladı və onun ölkəmizə bu səfərinin əlaqələrimizin daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev səfər zamanı ölkələrimiz arasında ticarət dövriyyəsi, nəqliyyat, birgə müəssisələrin yaradılması və digər sahələrdə iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi ilə bağlı səmərəli müzakirələrin aparılacağına əminliyini bildirdi. Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayan dövlətimizin başçısı iki ölkənin prezidentləri arasında əldə edilmiş razılaşmaların və eləcə də ötən ilin sentyabrında Rusiyaya rəsmi səfəri zamanı imzalanmış sənədlərin icrası ilə bağlı artıq konkret işlərin həyata keçirildiyini bildirdi, bunun əməkdaşlığımızın yüksək səviyyəsinin göstəricisi olduğunu dedi. Prezident İlham Əliyev bu il Samur çayı üzərində körpünün istifadəyə veriləcəyini qeyd edərək bunun hər iki ölkə vətəndaşlarının gediş-gəlişi üçün yaxşı imkanlar yaradacağına və əməkdaşlığımızın daha da genişləndirilməsi işinə xidmət edəcəyini bildirdi. Dövlətimizin başçısı bu gün Hacıqabulda "QAZ" avtomobillərinin istehsalı zavodunun təməlinin qoyulacağının əhəmiyyətini qeyd etdi. Prezident İlham Əliyev Maksim Oreşkinin rəhbərlik etdiyi nümayəndə heyətinin ölkəmizə səfəri zamanı iqtisadi sahədə əməkdaşlıqla bağlı yol xəritəsi çərçivəsində əlaqələrin perspektivlərinə dair səmərəli müzakirələrin aparılacağına əmin olduğunu vurğuladı.

Azərbaycana səfərindən məmnunluğunu bildirən Rusiya Federasiyasının iqtisadi inkişaf naziri, Azərbaycan-Rusiya Hökumətlərarası Komissiyasının həmsədri Maksim Oreşkin ölkəmizə hər gəlişi zamanı Azərbaycanın ayrı-ayrı bölgə və şəhərləri, çoxlu sayda gözəl rəngarəng yerləri ilə tanış olduqlarını bildirdi. Maksim Oreşkin Azərbaycan Prezidentinin ötən il Rusiyaya rəsmi səfəri zamanı təsdiq olunmuş yol xəritəsi üzrə Azərbaycanla fəal əməkdaşlığın həyata keçirildiyini qeyd edərək ticarət dövriyyəsi, investisiya və birgə layihələrin reallaşdırılması ilə bağlı müsbət dinamikanın mövcud olduğunu vurğuladı. Rusiyalı nazir Azərbaycan-Rusiya sərhədinə səfər etdiklərini və Samur çayı üzərində körpünün inşası ilə bağlı işlərin gedişi ilə tanış olduqlarını qeyd etdi. O, Azərbaycanla Rusiya arasında nəqliyyat sahəsində əməkdaşlığın uğurla inkişaf etdiyini vurğuladı. Qonaq bildirdi ki, hazırda sərhəd boyu 3 buraxılış məntəqəsinin təkmilləşdirilməsi ilə bağlı gedən işlər Azərbaycanla Rusiyanın qarşılıqlı nəqliyyat bağlantısının inkişafına kompleks yanaşmanın tətbiq olunduğunu göstərir.

Söhbət zamanı infrastruktur, investisiya, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı, birgə hökumətlərarası komissiyanın səmərəli fəaliyyət göstərdiyi qeyd olundu.

# "Azərbaycan sabit bir ölkə kimi regionda çox mühüm bir dövlətdir"

*Prezident İlham Əliyev Niderland-Azərbaycan Dostluq Qrupunun sədrini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 11-də Niderland Krallığı Senatının sabiq sədri, Avropa Şurası Parlament Assambleyasının fəxri sədri, Niderland-Azərbaycan Dostluq Qrupunun sədri Rene Van der Lindeni qəbul edib.**

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycan ilə Niderland arasında kənd təsərrüfatı, bərpa olunan enerji, nəqliyyat, logistika və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı, Azərbaycanda yaradılan nəqliyyat infrastrukturunun, xüsusilə Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanının logistika sahəsində əməkdaşlığın inkişaf etdirilməsi baxımından önəmi vurğulandı.

Söhbət zamanı Azərbaycan-Avropa əməkdaşlığına toxunuldu, Azərbaycanın Avropa İttifaqı ilə əlaqələrinin uğurla inkişaf etdiyi qeyd olundu.

Rene Van der Linden Azərbaycanın sabit bir ölkə kimi regionda çox mühüm bir dövlət olmasının əhəmiyyətini qeyd etdi. Görüşdə, həmçinin Azərbaycanın Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfə xüsusi qeyd olundu, əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev Akademik Həmid Araslının 110 illiyinin qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Sosial Tədqiqatlar Mərkəzinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 8 fevral tarixli 525 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün 2019-cu ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması və Azərbaycan Respublikasının 2019-2022-ci illərdə Hərəkata sədrliyi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Zahid Orucun Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev 2 saylı Sumqayıt şəhər xəstəxanasının əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbə verilməsi haqqında Sərəncam imzalayıb.

# Ölkəmizdə sağlamlıq imkanları məhdud olan uşaqların tibbi və sosial reabilitasiyası üçün mühüm addımlar atılır

*Birinci vitse-prezident Mehriban Əliyeva Bakıdakı Uşaq Psixonevroloji Mərkəzində olub*

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 11-də Bakının Nərimanov rayonundakı Uşaq Psixonevroloji Mərkəzində olub.***

AZƏRTAC xəbər verir ki, dəfələrlə bu müəssisəyə gələn Mehriban xanım Əliyeva tibbi bərpa və təlim-tərbiyə prosesləri ilə yaxından maraqlanıb, mövcud problemlərin həllinə dair tapşırıqlar verib. Bu gün də Mehriban Əliyeva burada yaşayan və müalicə olunan, xüsusi təhsilə yiyələnən uşaqlar üçün yaradılan şəraitlə maraqlanıb.

Mərkəzin baş həkimi İradə Musayeva Birinci vitse-prezident Mehriban Əliyevaya məlumat verdi ki, hazırda müəssisədə körpəlikdən yetkinlik yaşına qədər 103 uşağa tibbi xidmət göstərilir. Burada uşaqların yaşayışı, müalicəsi, xüsusi təhsilə yiyələnmələri üçün hər cür şərait yaradılıb.











Heydər Əliyev Fondunun dəstəyi ilə 2009-cu ildə inşa edilən bu tibb ocağında psixoloq, aromaterapiya, okulist, psixonevroloq, nevropatoloq, loqoped, pediatr, lor, ultrasəs müayinəsi, fizioterapiya otaqları fəaliyyət göstərir. Mərkəzdə autizm, uşaq serebral iflici və formaları, əqli gerilik və ləngimələr, onun təzahürlərindən əziyyət çəkən uşaqlar müalicə olunurlar. Onların müalicəsi isə kompleks şəklində, yəni həkim və pedaqoji müalicə daxil olmaqla aparılır. Mərkəzdə bu sahədə dünyada tətbiq olunan müasir proqramlardan istifadə edilir. Burada ən müasir tibb və diaqnostik cihazlardan, reabilitasiya avadanlığından istifadə olunaraq, sağlamlıq imkanları məhdud uşaqlara ən yüksək səviyyədə tibbi və bərpa xidməti göstərilir. Bunun üçün mərkəzdə hər cür şərait yaradılıb. Uşaqların müalicəsi, təlim-tərbiyəsi ilə peşəkar tibbi, pedaqoji və texniki heyət məşğul olur.

Birinci vitse-prezident Mehriban Əliyeva uşaqlarla söhbət etdi.

Doqquz yaşlı Ömərlə birgə rəsm çəkən birinci xanım Mehriban Əliyeva onun bacarıqlı olduğunu dedi. Heydər Əliyev Fondunun prezidenti uşaqların müalicəsi üçün tətbiq edilən prosedurları izlədi, müalicə zamanı istifadə olunan üsullarla maraqlandı. Mehriban xanım Əliyeva xüsusi qayğıya ehtiyacı olan 6 yaşlı Nasimin də istək və arzularını dinlədi, oyun vasitəsilə onun suallarını cavablandırdı. Tibb müəssisəsinin digər balaca pasiyenti Abdullanın müalicəsi isə filtrasiya olunan musiqinin xüsusi qulaqcıqlarla dinlənilməsinə əsasən beyinə impulsların ötürülməsi ilə aparılır.

Müalicənin bu üsulu ilə maraqlanan Birinci vitse-prezidentə məlumat verildi ki, cari ildən həmin müalicədə tətbiq edilən yeniliklərdən biri də Azərbaycan klassik musiqisinin filtrasiya olunaraq istifadə edilməsidir.

Ölkəmizdə sağlamlıq imkanları məhdud olan uşaqların tibbi və sosial reabilitasiyasının gücləndirilməsi istiqamətində mühüm addımlar atılır. Dövlət sağlamlıq imkanları məhdud uşaqların çoxsaylı sosial proqramlara, o cümlədən reabilitasiya, pulsuz istirahət və texniki-bərpa təminat proqramlarına cəlb olunmasını həyata keçirir. Mərkəzdə yaradılan şərait də bunu bir daha təsdiq edir.

Xüsusi qayğıya ehtiyacı olan balacalar Mehriban Əliyeva ilə söhbət edərək, bacarıqlarını nümayiş etdirdilər. Uşaqlar Heydər Əliyev Fondunun prezidentinə sevimli oyunlarından, oxuduqları mahnılardan danışdılar.

Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya müəssisənin həyətində inşa edilən akt zalı haqqında da məlumat verildi. Mərkəzdə müalicə və təhsil alan uşaqlara Heydər Əliyev Fondunun hədiyyələri təqdim edildi. Birinci vitse-prezident tibb ocağının fəaliyyətinə uğurlar arzuladı.

# Heydər Əliyev Fondunun fəaliyyətində yeni körpələr evi, uşaq bağçalarının inşası, mövcud olanların isə yenidən qurulması əsas yer tutur

*Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Bakıdakı 1 nömrəli körpələr evinin sakinləri ilə görüşüb*







Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva fevralın 11-də Bakının Nəsimi rayonundakı 1 nömrəli körpələr evində olub. AZƏRTAC xəbər verir ki, körpələr evinin baş həkimi əvəzi Simuzər Topçubaşova Birinci vitse-prezidentə məlumat verib. Bildirilib ki, hazırda burada 3 yaşadək 13 uşaq var.

Birinci vitse-prezident Mehriban Əliyeva valideyn himayəsindən məhrum olan uşaqlara daim diqqətlə yanaşır, onların gələcəkdə fiziki və mənəvi cəhətdən sağlam, dünya görüşlü, bilikli, savadlı yetişməsi üçün mühüm layihələrə imza atır. Heydər Əliyev Fondunun prezidentinin Nəsimi rayonundakı körpələr evini növbəti dəfə ziyarət etməsi Mehriban xanım Əliyevanın buranın sakinlərinə nə dərəcədə həssaslıqla yanaşdığını, onlarla mütəmadi maraqlandığını bir daha nümayiş etdirir. Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyətində yeni körpələr evi, uşaq bağçalarının inşası, mövcud olanların isə yenidən qurulması əsas yer tutur. Bütün bunlar sübut edir ki, Fond gələcəyimiz olan uşaqların təlim-tərbiyəsinin ən yüksək səviyyədə təşkili istiqamətində Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətə mühüm töhfələr verir. Heydər Əliyev Fondu valideyn himayəsindən məhrum olan uşaqların sosial məsələlərinin həlli, sağlamlığının qorunması, bu həssas qrupa daxil olanların vətənpərvər, savadlı şəxsiyyət kimi yetişməsi istiqamətində indiyədək bir çox vacib layihələr icra edib.

Qeyd edək ki, 1930-cu ildə tikilən bu bina uzun illər təmir edilmədiyinə görə yararsız hala düşmüşdü. Heydər Əliyev Fondunun təşəbbüsü ilə körpələr evində ilk dəfə 2005-ci ildə, daha sonra 2014-cü ildə əsaslı təmir və yenidənqurma işləri aparılıb. 2015-ci il mayın 10-da Fondun prezidenti Mehriban Əliyevanın iştirakı ilə körpələr evinin açılışı olub. Binadakı yataq, tibbi müayinə, laboratoriya, fiziki tərbiyə otaqları zəruri avadanlıq və inventarla təchiz edilib. Körpələr evinin sakinlərinə Heydər Əliyev Fondunun hədiyyələri təqdim edildi.



# Heydər Əliyev Fondu Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı göstərir

*Birinci vitse-prezident Mehriban Əliyeva paytaxtdakı 268 nömrəli xüsusi məktəbdə olub*





Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva fevralın 11-də Bakının Nəsimi rayonundakı 268 nömrəli xüsusi məktəbdə də olub, uşaqlarla görüşüb, şagirdlərin təhsili ilə maraqlanıb.

AZƏRTAC xəbər verir ki, məktəbin direktoru Seyfəddin Mustafayev Birinci vitse-prezidentə məlumat verdi.

Bildirildi ki, təhsil ocağı 2017-ci il sentyabrın 11-də əsaslı təmirdən sonra Prezident İlham Əliyevin iştirakı ilə istifadəyə verilib. Qeyd olundu ki, məktəbin 23 sinif otağı var. Təhsil müəssisəsinin bütün otaqları zəruri əyani tədris vəsaitləri ilə təchiz olunub. Burada, həmçinin informatika otağı və gimnastika zalı da şagirdlərin ixtiyarına verilib. Təhsil ocağında əqli və fiziki cəhətdən geri qalmış, psixi inkişafında ləngiməsi olan 900 şagird təhsil alır. Onlardan 220-nə məktəbdə, qalanlarına isə evlərində fərdi qaydada dərs keçirilir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsili ilə 242 müəllim məşğul olur. Onlar daun sindromlu, autizm, ümumtəhsil proqramını mənimsəyə bilməyən və əqli inkişaf geriliyi diaqnozu olan uşaqlara təlim keçirlər. Məktəbdə Azərbaycan və rus bölmələri fəaliyyət göstərir. Burada uşaqlar gündə 2 dəfə qidalanırlar.

Qeyd edək ki, Azərbaycanın gələcəyi olan uşaqlara yüksək qayğı göstərən Heydər Əliyev Fondu onların intellektual inkişafı, sağlam vətəndaşlar kimi boya-başa çatmaları üçün mühüm tədbirlər həyata keçirir. Fond xüsusi qayğıya ehtiyacı olan uşaqları da hər zaman diqqət mərkəzində saxlayır, müxtəlif aksiyalar reallaşdırmaqla onlara sevinc bəxş edir. Bu dəfə də uşaqlara Heydər Əliyev Fondunun hədiyyələri təqdim edildi. Fondun prezidenti Mehriban Əliyeva xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldığı bu müəssisəyə dəfələrlə baş çəkib, burada yaradılan şəraitlə maraqlanıb. Birinci vitse-prezident Mehriban Əliyeva məktəbin musiqi sinfində şagirdlərin ifasını dinlədi.

## Yeni Sərəncamla hansı sahələr üzrə işçilərin əmək haqqı artacaq?

*Muzdla çalışanların azı 40%-nin əmək haqlarında artım olacaq*



Azərbaycan Respublikasının Prezienti cənab İlham Əliyevin 8 fevral 2019-cu il tarixli Sərəncamı ilə cari il martın 1-dən minimum əmək haqqının 38,5 faiz (50 manat) artırılaraq 180 manata çatdırılması dövlət büdcəsindən maliyyələşən təşkilatlarda və özəl sektorda çalışan azı 600 min işçinin əmək haqqının artmasına imkan verəcək. ƏƏSMN-in mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Dövlət büdcəsindən maliyyələşən təşkilatlar üzrə bu artım əmək haqları Vahid Tarif Cədvəli (VTC) üzrə ödənilən 450 mindən çox işçiyə şamil olunacaq. Onların sırasında daxildir:

* elm, səhiyyə, sosial təminat, mədəniyyət, gənclər və idman, kənd təsərrüfatı, ekologiya, mənzil-kommunal, nəqliyyat və rabitə, meliorasiya, su təsərrüfatı və balıqartırma müəssisələrində, dövlət ümumi təhsil və peşə təhsili müəssisələrində bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılmış müəllimlər və digər təhsil işçiləri istisna olmaqla, təhsil müəssisələrində çalışan işçilər;

* dövlət qulluğunun xüsusi növündə çalışan, əmək haqları Vahid Tarif Cədvəli üzrə ödənilən mülki işçilər;

* dövlət qulluğunun ümumi növündə yardımçı vəzifələrdə minimum əmək haqqından aşağı maaş alan dövlət qulluqçuları;

* dövlət orqanlarında çalışan, lakin dövlət qulluqçusu hesab edilməyənlər (xadimə, dalandar, bağban, gözətçi, ocaqçı, ixtisas dərəcəsi olmayan fəhlə və s.);

* dövlət büdcəsindən maliyyələşdirilən bir sıra təşkilatlarda (Nazirlər Kabinetinin 2018-ci il 14 mart tarixli 94 nömrəli qərarı ilə əmək haqları tənzimlənən təşkilatlar: Azərbaycan Milli Elmlər Akademiyası, "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzi, Azərbaycanda Atatürk Mərkəzi, Mədəniyyət və Turizm Nazirliyinin Milli Kulinariya Mərkəzi, İcra Hakimiyyəti orqanlarının nəzdindəki mərkəzləşdirilmiş mühasibatlıqlar, dövlət arxivləri, elmi mərkəzlər, Dövlət Film Fondu, Səhiyyə Nazirliyinin Məhkəmə-Tibbi Ekspertiza və Patoloji Anatomiya Birliyi və Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzi, Bakı Şəhər İcra Hakimiyyətinin tabeliyindəki Bakı Şəhər məktəbəqədər təhsil müəssisələri və uşaq evləri idarəsi, Təhsil Nazirliyinin Ərazi Maliyyə Hesablaşma Mərkəzi) aşağı əmək haqqı alan xidmətedici heyət işçiləri.

Eyni zamanda, minimum əmək haqqı artımı özəl sektorda çalışan və əmək haqqı 180 manatdan az olan işçilərin (ilkin hesablamalara əsasən azı 150 min nəfər) əmək haqqının artmasına səbəb olacaq. Dövlət başçısının yeni Sərəncamı ilə minimum əmək haqqının artırılması muzdla çalışanların azı 40%-nin əmək haqlarının artmasına imkan verəcək. Minimum əmək haqqının artırılması üçün dövlət büdcəsindən illik 400 milyon manat, 2019-cu ilin 10 ayı (mart-dekabr) 335 milyon manatadək əlavə vəsait ayrılacaq.

## Millət vəkili: "Prezident apardığı uğurlu siyasəti ilə Azərbaycanın qələbələri daha da artacaq"



Bu günlərdə məşhur "Formula 1" yarışının Bakıda keçirilməsi ilə bağlı müqavilənin 2023-cü ilədək uzadılmasını Azərbaycanın, ilk növbədə Prezident İlham Əliyevin apardığı xarici siyasətin növbəti qələbəsi kimi qiymətləndirmək olar. SİA-nın məlumatına görə, bu fikirləri Milli Məclisin üzvü Aydın Mirzəzadə bildirib.

O, əlavə edib ki, ötən dörd il ərzində yarışın Bakıda yüksək səviyyədə təşkil edilməsi, yarışa gələn xarici turistlərin sayının artması və yarışın aparıcı telekanallarla nümayiş etdirilməsi Azərbaycanı cəlbedici və perspektivli ölkə olması anlamına gətirdi: "Həmçinin ölkənin sürətlə inkişafı, turistlərdə Bakının qədim tarixi qorunmaqla müasir görkəminin formalaşması yarışın gözəlliyini daha da artırır. Heç bir şübhə ola bilməz ki, prezident apardığı uğurlu siyasəti ilə Azərbaycanın qələbələri daha da artacaq".

## "Sərəncam əhalinin rifah səviyyəsinin yaxşılaşdırılmasında növbəti addımdır"




"Ölkə başçısının minimum əmək haqlarının artırılması ilə bağlı sərəncamı respublikamızda əhalinin rifah səviyyəsinin yaxşılaşdırılması istiqamətində növbəti mühüm addımdır". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Sevinc Hüseynova deyib. Azərbaycanda həyata keçirilən sosial siyasətin kökündə vətəndaş amilinin dayandığını deyən deputat söyləyib ki, bu baxımdan sözügedən sərəncamı əhalinin sosial müdafiəsinin gücləndirilməsi baxımından önəmli hadisə kimi qiymətləndirilməlidir.

Sərəncama əsasən, Azərbaycanda minimum əmək haqqının məbləğinin 2019-cu il martın 1-dən 50 manat artırılaraq 130 manatdan 180 manata çatdırıldığını xatırladan S. Hüseynova qeyd edib ki, bununla da, ölkəmizdə minimum əmək haqqının yaşayış minimumuna çatdırılması təmin edilib: "Bu mühüm sosial əhəmiyyətli tədbir, eyni zamanda, əmək münasibətlərinin leqallaşdırılması istiqamətində sağlamlaşdırıcı təsir göstərəcək". Deputat əlavə edib ki, Minimum əməkhaqqı məbləğinin artırılması, sadəcə, minimum əməkhaqqı alan vətəndaşların gəlirlərinin artması deyil, eyni zamanda, həmin meyardan istifadə etməklə əməkhaqqı müəyyənləşən vətəndaşların da maaşlarında artıma səbəb olacaq.

**Nailə Məhərrəmova**

## "Səthlərin nanostrukturlaşdırılması" monoqrafiyası çapdan çıxıb




Azərbaycan alimləri - Milli Aviasiya Akademiyasının rektoru, akademik Arif Paşayev və Azərbaycan Milli Aviasiya Akademiyasının nəqliyyat mexanikası kafedrasının müdiri, Azərbaycan Mühəndislik Akademiyasının vitse-prezidenti, texnika elmləri doktoru, professor Əhəd Canəhmədovun həmmüəllifləri olduqları "Səthlərin nanostrukturlaşdırılması" monoqrafiyası nəfis tərtibatda nəşr olunub. AZƏRTAC xəbər verir ki, əsər dörd bölümdən və ümumilikdə 320 səhifədən ibarətdir. Monoqrafiyanın elmi redaktoru Beynəlxalq Mühəndislik Akademiyasının prezidenti, SSRİ və Rusiya Dövlət mükafatları laureatı akademik Boris Qusevdir.

Kitabda səth qatlarının nanostrukturlaşdırma prinsipləri və örtüklərin çəkilməsi məsələləri əksini tapıb. Həmçinin nanotexnologiya yanaşmalarının həyata keçirilməsinin bəzi nümunələrinə baxılıb və onların təcrübədə istifadəsinin üstünlükləri göstərilib. Materialların səth qatlarının nanostrukturlaşdırma yolu ilə möhkəmləndirilməsinin yeni metodları, nanostrukturlu örtüklərin çəkilməsi, submikrokristallik strukturun daxili sərhədlərin bölünməsinin formalaşmasına baxılıb.

Metalların səthində nazik pərdələrin artmasının modelləşdirilməsi, fraktal metod yanaşmaları inkişaf etdirilib, büzmənin kinetikası təhlil edilib və nazik pərdələrin artmasının ədədi modelləşdirməsi göstərilir. Kitab bərk cismin mexanikası və plastiklik və möhkəmlik fizikası, fiziki materialşünaslıq sahəsində çalışan elmi-texniki mütəxəssislər üçün nəzərdə tutulub, həmçinin müəllimlər, aspirantlar və ali təhsil müəssisələrinin yuxarı kurs tələbələri üçün də faydalıdır.

## Mətbuat Şurasının İdarə Heyətinin iclasında KİV-lərlə bağlı bir sıra məsələlər nəzərdən keçirilib



Fevralın 11-də Azərbaycan Mətbuat Şurasının (MŞ) İdarə Heyətinin iclası keçirilib. Şuradan AZƏRTAC-a verilən məlumata görə, iclasda KİV-lərin dövlət tərəfindən maliyyələşməsi şərtlərinin dəyişməsindən sonra yaranmış vəziyyət, internet media resurslarının maliyyələşməsi, qəzet yayımı sahəsindəki vəziyyət, KİV-lərin reklam gəlirləri və s. məsələlər nəzərdən keçirilib. Bundan başqa, iclasda Mətbuat Şurasının 2018-ci ildə gördüyü işlərə dair hesabat müzakirə edilib. Sonra Mətbuat Şurasına yeni üzvlərin qəbulu məsələsinə baxılıb və cari məsələlər barədə fikir mübadiləsi aparılıb. MŞ-nin sədri, Milli Məclisin deputatı Əflatun Amaşov Mətbuat Şurası haqqında qanun layihəsinin hazırlandığını bildirib və hazırda sənəd üzərində ekspertiza işlərinin aparıldığını vurğulayıb. İclasda bəzi KİV-lərlə bağlı məhkəmə prosesləri ətrafında da müzakirələr aparılıb.

## Gənc sərhədçilər Vətənə sədaqət andı içiblər



Dövlət Sərhəd Xidmətinin (DSX) Göytəpə şəhərindəki hərbi hissəsində gənc əsgərlərin andiçmə mərasimi keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, dövlət himninin səslənməsi ilə başlayan mərasimdə gənc əsgərlər təntənəli şəkildə hərbi and içdikdən sonra tədbir iştirakçılarına Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyevin təbriki çatdırılıb.

Mərasimdə ulu öndər Heydər Əliyevin dövlət sərhədlərimizin qorunması, Azərbaycan sərhəd mühafizəsinin formalaşması və inkişafı istiqamətindəki xidmətləri, böyük dövlət xadiminin müəyyənləşdirdiyi milli sərhəd strategiyasının Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsi sayəsində ölkəmizin sərhəd mühafizəsinin ən müasir tələblər səviyyəsinə qaldırılması xüsusi qeyd edilib.

Çıxış edənlər Vətənə, dövlətə sədaqət andı içərək müqəddəs sərhədlərimizi şərəflə qorumaq məsuliyyətini öz üzərlərinə götürən gənc əsgərlərin hərbi anda daim sadiq qalacaqlarına və Azərbaycan Sərhəd Mühafizəsinin 100 illik yubileyini xidmətdə qazanılmış yüksək nailiyyətlərlə qarşılayacaqlarına əminliklərini bildirərək onlara müvəffəqiyyətlər arzulayıblar.

Tədbirdə Dövlət Sərhəd Xidmətinin şəxsi heyətinin ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altındakı torpaqlarımızda Azərbaycanın suveren hüquqlarının təmin olunması və həmin ərazilərdə dövlət sərhədlərinin mühafizəsinin Azərbaycanın dövlət bayrağı altında təşkil ediləcəyinə əminlik ifadə olunub.

Valideynlər yaradılmış şəraitə görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildirib, övladlarını təbrik edərək Vətən sərhədlərinin keşiyində ayıq-sayıq dayanmağı tövsiyə ediblər. Tədbir gənc əsgərlərin təntənəli marşla tribuna önündən keçidi ilə başa çatıb.

***Bəlli olduğu kimi, 2008-ci il iyulun 30-da Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" təsdiq edilib. Belə ki, burada konseptual məqsəd, kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyinin təkmilləşdirilməsi faktorunu əhatə edir ki, bu da, bütövlükdə, vətəndaş cəmiyyəti quruculuğu prosesində KİV-in rolunu əhəmiyyətli dərəcədə artırır. Ümumiyyətlə, fikir, söz və məlumat azadlığını inkişaf etdirmək, kütləvi informasiya vasitələrinin müstəqilliyini dəstəkləmək, redaksiyalara yardım mexanizmini təkmilləşdirmək, informasiya sektorunda yeni informasiya-kommunikasiya texnologiyalarının tətbiqini stimullaşdırmaq, cəmiyyət və kütləvi informasiya vasitələri arasında səmərəli əməkdaşlığı gücləndirmək, jurnalistlərin peşəkarlığının və məsuliyyətinin artmasına şərait yaratmaq, sosial müdafiəsini gücləndirmək, dövlət və cəmiyyət üçün prioritet təşkil edən məsələlərin həllində KİV-lərin mühüm yeri və rolu bu reallığı təsdiq edir.***

2009-cu il aprelin 3-də isə Konsepsiyanın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu - KİVDF yaradıldı ki, bu da qarşıya qoyulmuş məqsədlərin daha geniş sferada tətbiqi üçün münbit şərait yaratdı. Fondun əsas vəzifəsi söz və məlumat azadlığının, kütləvi informasiya vasitələrinin inkişaf etdirilməsi üçün Konsepsiyada nəzərdə tutulmuş müddəaların həyata keçirilməsini, habelə, KİV-lərin proqram, layihə və digər tədbirlərini maliyyələşdirməkdir ki, ötən 10 ildə nəhəng uğurlara və nailiyyətlərə imzalar atıldı.

## KİVDF Azərbaycanın uğurlu media modelinin nümunəsidir!

KİVDF-nin fəaliyyətinin 10 ilində atılan hər bir addım, bütövlükdə, mətbuat təmsilçilərinin fəaliyyətlərinə çoxsaylı bəhrələr verib. İlk növbədə, bu qurumdan gözləntilər müxtəlif layihələrin həyata keçirilməsi ilə reallığa çevrildi. İstər kütləvi informasiya vasitələrinin üzləşdiyi bir çox problemlərin aradan qaldırılmasında, istər mətbuat-dövlət-cəmiyyət münasibətlərinin sivil müstəvidə tənzimlənməsində, istərsə də, jurnalistlərin bütün bunlardan töhfələr almasında KİVDF-nin əhəmiyyətli dərəcədə fəaliyyəti mövcuddur. Mətbuat orqanlarının maddi-texniki bazasını, o cümlədən, jurnalistlərin sosial vəziyyətini və məişət şəraitinin yaxşılaşdırılmasını əhatə edən layihələr dünyada heç bir analoqu olmayan fəaliyyəti ilə sübuta yetirilib.

Fondun ayrıca, yaxud müxtəlif nazirliklərlə birlikdə günümüzün reallığını əks etdirən müxtəlif mövzulara aid jurnalistlərin fərdi yazı müsabiqələri keçirmələri, qaliblərin pul və diplomlarla mükafatlandırılması müstəqil mətbuatın inkişafına və jurnalistlərin peşəkarlığının artırılmasına yönəlmiş ən mütərəqqi addımlardır. Fond, yazı müsabiqələrinin keçirilməsinə xüsusi önəm verməklə, jurnalistlərin fərdi peşəkarlığına və redaksiyalarda yaradıcılıq mühitinin inkişafına dəstək olur.




# KİVDF - 10 ilin uğurları

## *Yaxud qərəzkarların kirli məqsədləri alınmadı*

Ən əsası, xüsusi vurğulamaq lazımdır ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə, KİVDF-yə bir neçə dəfə maliyyə vəsaiti ayrılıb və bunun nəticəsidir ki, artıq iki 17 mərtəbəli, 411 mənzilli bina tikilərək, jurnalistlərin istifadəsinə verilib. Artıq üçüncü binanın tikilməsi prosesi yekunlaşdırılmaq üzrədir. Təbii ki, bu addımlar dünyada analoqu olmayan bir hadisədir və Azərbaycanın uğurlu media modelinin nümunəsidir. Ümumiyyətlə, KİVDF-nin fəaliyyətinin qarşıdakı illərdə də müasir standartlardan çıxış etməsi, ölkə mediasının təkmilləşdirilməsi üçün müvafiq tədbirlər həyata keçirməsi kimsədə şübhə yaratmamalıdır. Çünki son 10 ildə qurumun qüsursuz fəaliyyəti də belə nəticəyə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır.

## Bu dəfə də, print-media ətrafında süni səs-küy...

Təəssüf ki, KİVDF-nin Azərbaycan mediasında daha təkmilləşdirilmiş işlər aparması, bu yöndə müvafiq qərarlar qəbul etməsi müxtəlif qərəzli qurum və fərdlər tərəfindən sifarişlər əsasında kölgə altına salınır. Daha dəqiq desək, bu gün müxtəlif adlar altında dırnaqarası fəaliyyət göstərən fərdlər bu və ya digər məsələlər ətrafında manipulyasiyalara yol verməklə, hətta həmin məsələləri qəsdən siyasiləşdirməyə çalışırlar. Belə cəhdlər isə, müstəqil və müasir Azərbaycan mediasına, əlbəttə ki, sirayət etməyib, bundan sonra da etməyəcək. Xüsusilə, print-media ətrafında süni gərginlik yaratmağa çalışanlar, əslində, KİVDF-nin əldə etdiyi və edəcəyi növbəti uğurlara qarşı olduqlarını açıq-aydın sərgiləməkdədirlər. Süni səs-küylər isə nəticəsiz qalmaqdadır, təbii ki!

Bu da, sirr deyil ki, Azərbaycanda bir sıra qəzetlərin oxunmaması, onların yerini internet saytların tutması reallığa çevrilib. Hətta 10 il bundan öncə, bir sıra qəzet baş redaktorları tərəfindən qəzetlərin satılmaması fonunda onların tamamilə bağlanacağı və çap mətbuatının sıradan çıxacağı istiqamətində fikirlər səslənirdi. Lakin belə bir məqamda Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu (KİVDF) yaradıldı ki, KİVDF-nin yaranmasından sonra qəzetlərə maliyyə yardımı verilməyə başlandı və bu amil mütəmadi xarakter almağa başladı. Hətta onu da, deyə bilərik ki, maliyyələşmə prinsipi çap mediasının yaşaması üçün yeni nəfəs oldu. Belə ki, bilavasitə dövlət başçısının dəstəyi nəticəsində KİVDF-nin xətti ilə qəzetlərin maliyyələşdirilməsinə yönəlmiş vəsaitlər 2009-cu ildən bu günə kimi çap mediasının ayaqda durması üçün ən mühüm vasitə oldu desək, yanılmarıq. Prezidentin bu dəstəyi ilə Azərbaycan milli mətbuatı sıradan çıxmaq təhlükəsindən qurtuldu.

## Bu gün dünyada biznes mühiti mövcuddur və inkişaf etmək üçün ardıcıl fəaliyyət göstərmək şərtdir

İllər ötdükcə, print-medianın internet, yaxud elektron media qarşısında geri addım atması reallığı üzə çıxdı ki, bu da, onunla bağlı növbəti məlum qərarın verilməsi ilə nəticələndi. Yaranmış yeni vəziyyət KİVDF-ni, çıxış yolu kimi yeni addımlar atmağa məcbur etdi ki, bunu da heç bir halda, çap mətbuatının tam sıradan çıxması, yaxud qəzetlərin bağlanması kimi iddia edilməsi doğru nəticə deyil. Çünki KİVDF-nin yeni tələbləri Azərbaycanın çap mətbuatını daha da inkişaf etdirməyə, onu inkişaf etmiş ölkələrdəki duruma gətirməyə hədəflənib. Bu tələblər daxilində hər hansı qəzetlər bağlanmalıdır və s. müddəaları yer almayıb. Bəs tələblər nədir?

Bundan sonra fondun KİV-ə maliyyə yardımı müsabiqəsində son 3 ildə müntəzəm gündəlik nəşr olunan, müsabiqə elan edilən gündən səhifələrinin sayı 16-dan (A3 formatda), tirajı 5000 nüsxədən az olmayan, hər buraxılışından, ən azı, 2000 nüsxəsi satılan və ya abunə yolu ilə yayılan ictimai-siyasi qəzetlər iştirak edə bilərlər. Xarici dillərdə nəşr olunan gündəlik və həftəlik ictimai-siyasi qəzetlər üçün tirajın minimum 3000, satış və abunənin isə minimum 1500 nüsxə olması nəzərdə tutulur.

Bu tələblər, ilk növbədə, çap mətbuatını dünyanın inkişaf etmiş ölkələrindəki mətbuatla ayaqlaşmağa məcbur edəcək. Çünki bu gün dünyada biznes mühiti mövcuddur və inkişaf etmək üçün ardıcıl fəaliyyət göstərmək şərtdir.

## Bu qərar milli mediamızın dünya arenasındakı yerini uğurla təmsil etməsinə kifayət qədər şərait yaradır

Daha bir faktora nəzər salaq. Belə ki, bu gün əksər dövlətlərdə cəmi bir neçə mərkəzi qəzet çıxır. Onlar gözəl tərtibatından tutmuş, texniki imkanlarına, böyük tirajlarına və geniş oxucu auditoriyasına malikdirlər. Azərbaycanda isə, vəziyyət fərqlidir. KİVDF 33 qəzetə maliyyə dəstəyi ayırır. Eyni zamanda, sahə qəzetləri, aylıq və regional qəzetlər də bu sırada yer alıb. Bu qəzetlərin heç biri nə işçilərinə yüksək əmək haqqı verə bilir, nə də bəzi MDB ölkələri ilə belə müqayisə oluna biləcək səviyyədə çıxır. Bu zaman sual yaranır ki, Azərbaycan kimi geniş əraziyə malik olmayan bir ölkədə, əksəriyyətinin tirajı 5 mini ötməyən bu qədər qəzetin dövlət dəstəyi sayəsində yaşaması nə qədər zəruridir?

Bu baxımdan, KİVDF-nin print-media ilə bağlı yeni tələbləri yerində və düzgün atılmış addım olaraq qiymətləndirilməlidir. Verilən qərar, Azərbaycan mətbuatında yeni səhifə olacaq. Bəs uğurlar nədən ibarət olacaq? İlk növbədə, print-mediada mərkəzləşmə fəaliyyətinə start veriləcək və bunun ilkin nəticələri də görünməkdədir. Bir sıra qəzetlər artıq bu tələblərdən sonra çapını dayandırdığını elan edib və elektron formada fəaliyyət göstərmək qərarını verib ki, bu da, oxucu auditoriyasını əldə saxlamaq və artırmaq reallığını göstərir. Beləliklə, media sahəsində yalnız özünə güvənən, cəmiyyət tərəfindən qəbul olunduğuna, oxunduğuna inanan qəzetlər qalacaq ki, bu da, medianın tərəqqisi üçün vacib amillərdəndir. O cümlədən, bu qərar milli mediamızın dünya arenasındakı yerini uğurla təmsil etməsinə kifayət qədər şərait yaradır.

Beləliklə, KİVDF-nin 10 ildə əldə etdiyi böyük uğurlara qərəzlə yanaşanlar, bilməlidirlər ki, onların bu iddiaları, heç bir halda, milli mətbuatımıza sirayət etməyəcək, əskinə, KİVDF qarşıda daha mütərəqqi layihələrə imza atmaqla, mətbuatımızın tərəqqisinə davamlı töhfələrini bəxş edəcək.

***Rövşən NURƏDDİNOĞLU***

# Azərbaycanı öz inkişaf yolundan və müstəqil siyasətindən döndərmək mümkün deyil

## *Azərbaycan Respublikası Milli Məclisinin deputatı Malik Həsənovun yap.org.az-a müsahibəsi*

***- Malik müəllim, bu gün öz inamlı inkişafını uğurla davam etdirən və yüksək beynəlxalq nüfuza malik olan Azərbaycan sabitlik adası kimi tanınır. Necə düşünürsünüz, ölkəmizdə möhkəm ictimai-siyasi sabitliyi və dinamik inkişafı şərtləndirən amillər hansılardır?***



- Dünyada maliyyə-iqtisadi böhranın, bir çox ölkələrdə isə xaos və tənəzzül kimi mənfi hallar və meyillərin müşahidə edildiyi şəraitdə ölkə daxilində sabitliyi qorumaq, tərəqqiyə nail olmaq çox böyük əhəmiyyətə malikdir. Sevindirici haldır ki, bu gün Azərbaycanı bir çox ölkələrdən fərqləndirən xüsusiyyətlər sırasında məhz möhkəm təməllərə söykənən ictimai-siyasi sabitlik və dinamik inkişaf mühüm yer tutur. Sabitliyi şərtləndirən amil isə Prezident İlham Əliyev tərəfindən uğurlu daxili və xarici siyasət kursunun həyata keçirilməsi, bu siyasətin Azərbaycan xalqı tərəfindən dəstəklənməsidir.

Ümumiyyətlə, Azərbaycan son 15 il ərzində Prezident İlham Əliyevin rəhbərliyi ilə hərtərəfli, dinamik inkişaf yolu keçib. Qazanılan nailiyyətlər ölkəmizin Prezident İlham Əliyev tərəfindən innovativ əsaslı güclü iqtisadiyyat quruculuğu ilə bağlı qarşıya qoyulan strateji hədəfə doğru inamla irəlilədiyini bir daha təsdiqləyir. 2004-cü ildən etibarən bütün dünya üzrə ÜDM istehsalının artımında ən yaxşı göstəricilərdən biri 3 dəfədən çox olmaqla məhz Azərbaycanda qeydə alınıb. Təqdirəlayiq haldır ki, rəqabətqabiliyyətliliyinə görə Azərbaycan iqtisadiyyatı MDB məkanında birinci yerə yüksəlib. Azərbaycan dünyaya nümunəvi inkişaf modeli təqdim edib, ölkəmizin iqtisadi potensialı mütəmadi olaraq artır, dünya iqtisadiyyatında mövqeyi möhkəmlənir. Nəticədə ötən dövrün mənzərəsi onu göstərir ki, qazanılan nailiyyətlər müstəqil Azərbaycanın gücü və qüdrətinin daha da artmasını təmin edib. Təsadüfi deyil ki, dünyanın nüfuzlu reytinq agentlikləri Azərbaycanda həyata keçirilən islahatları, bütün sahələri əhatə edən müsbət göstəriciləri və nailiyyətləri yüksək qiymətləndirirlər. Digər tərəfdən, regional və qlobal təhlükəsizliyə mühüm töhfələr verən Azərbaycan həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanına çevrilib. Nüfuzlu beynəlxalq tədbirlərin Azərbaycanda keçirilməsi ölkəmizə olan yüksək hörmət və etimadın bariz ifadəsidir.

***- Azərbaycanın müstəqil siyasət həyata keçirməsi və inkişaf yolunda əmin addımlarla irəliləməsi anti-Azərbaycan dairələr tərəfindən böyük narahatlıqla qarşılanır. Bu qərəzli qüvvələr Azərbaycan əleyhinə qarayaxma kampaniyası apararaq ölkəmizin müsbət beynəlxalq imicinin üzərinə kölgə salmağa çalışırlar...***

- Doğrudur, müstəqil siyasət həyata keçirən Azərbaycanın böyük uğurlar qazanması, beynəlxalq mövqeyinin davamlı olaraq möhkəmlənməsi anti-Azərbaycan dairələri, ermənipərəst qüvvələri ciddi şəkildə narahat edir. Onlar müxtəlif vasitələrdən istifadə edərək ölkəmizin müsbət beynəlxalq imicinin üzərinə kölgə salmağa cəhd edirlər. Müxtəlif informasiya resurslarında Azərbaycan əleyhinə qərəzli materiallar dərc etdirməklə ictimai rəyi yanıltmağa çalışırlar. Eyni zamanda, bu dairələr bir sıra məsələlərlə bağlı ölkəmizə qarşı əsassız ittihamlar irəli sürür, qərəzli və ikili standartlara söykənən "qətnamə"lər, "hesabat"lar vasitəsilə Azərbaycana təzyiq etməyə çalışırlar. Lakin müxtəlif məkrli planların tərkib hissəsi olan bu cür cəhdlər hər zaman iflasa düçar olur. Məqsəd, qeyd etdiyimiz kimi, Azərbaycanı öz inkişaf yolundan və müstəqil siyasətindən döndərməkdir. Amma bu, mümkün deyil. Çünki əvvəla, Azərbaycan Prezident İlham Əliyevin rəhbərliyi ilə dinamik inkişaf yolunda inamla irəliləyir, müstəqil və prinsipial siyasət həyata keçirir, öz maraqlarını qətiyyətlə müdafiə edir. Digər tərəfdən, Azərbaycanda xalq-iqtidar birliyi mövcuddur. Azərbaycan xalqı Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasəti dəstəkləyir və bu siyasətin ölkəmizin inkişafına, sabitlik və firavanlığa xidmət etdiyini əminliklə ifadə edir. Xalqımız əmindir ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət bundan sonra da ölkəmizin uğurlu inkişafını təmin edəcək, qarşıdakı dövrdə də ölkə iqtisadiyyatı dayanıqlı şəkildə inkişaf edəcək. Yəni xalqımız inkişaf və sabitliyin davamlı olması üçün Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu daxili və xarici siyasəti qətiyyətlə dəstəkləyir.

***- Yeri gəlmişkən, antimilli mövqe nümayiş etdirərək "beşinci kolon" funksiyasını icra edən radikal ünsürlər də anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirir, ölkəmizdə sabitliyin pozulması üçün təxribatçı hərəkətlərini davam etdirirlər. Bu barədə fikirləriniz nədən ibarətdir?***

- Anti-Azərbaycan dairələrin istifadə etdiyi vasitələrdən biri də ölkə daxilindəki anti-milli ünsürlərin "xidmət"lərindən yararlanmaqdır. Bu antimilli ünsürlər, radikal qruplar konkret olaraq "beşinci kolon" funksiyasını yerinə yetirərək ermənipərəst dairələrlə sinxron hərəkət edirlər. Xaricdəki anti-Azərbaycan dairələrdən aldıqları qrantlar qarşılığında onların sifarişlərini yerinə yetirən radikal ünsürlərin istəyi ölkəmizdə sabitliyin pozulması, xaos və anarxiyanın yaranmasıdır. Onlar bu məqsədlə müxtəlif təxribatlara əl atırlar, süni gərginlik və ajiotaj yaratmağa çalışırlar. Elə yanvarın 19-da Azərbaycanda heç bir dəstəyə və nüfuza malik olmayan radikal müxalifətin "mitinq" şousu təşkil etməsi və bir gün sonra Şəhidlər Xiyabanını ziyarət etmək adı ilə süni qarşıdurma yaratmağa cəhd etməklə asayişi pozmağa çalışması bu məkrli planın tərkib hissəsidir. Bir sözlə, radikal müxalifət anti-Azərbaycan dairələrin əlində alətə çevrilməklə, onların sifarişlərini yerinə yetirməklə antimilli mahiyyətini nümayiş etdirir.

***- Malik müəllim, Azərbaycanda sabitliyin pozulmasını istəyən antimilli ünsürlər həm də sosial şəbəkələr vasitəsilə - virtual müstəvidə xalqımızın və dövlətimizin əleyhinə kampaniya aparırlar. Belə neqativ hallara qarşı hansı zəruri tədbirlər həyata keçirilməlidir?***

- Əvvəla qeyd edim ki, Azərbaycan xalqının və dövlətinin maraqlarına qarşı çıxış edən, anti-Azərbaycan dairələrin xidmətçisinə çevrilən həmin anti-milli ünsürlər sosial şəbəkələrdən mənəvi terror vasitəsi kimi istifadə edirlər. Onlar Azərbaycan xalqına qarşı təhqiramiz ifadələr səsləndirməklə yanaşı, həm də dağıdıcı çağırışlar ifadə edirlər. Xaricdən idarə olunan bir sıra internet resurslarında Azərbaycana qarşı qarayaxma kampaniyasının aparılması və dezinformasiyaların dövriyyəyə buraxılması cəmiyyətdə çaşqınlıq yaratmağa, yanlış ictimai rəy formalaşdırmağa hesablanıb. Amma qeyd etdiyimiz kimi, bütün bu cəhdlər faydasızdır və hər zaman uğursuzluğa düçar olur. Çünki Azərbaycan cəmiyyəti kifayət qədər müdrik və intellektualdır, antimilli ünsürlərin bu cəhdlərinin arxasında hansı çirkin niyyətlərin dayandığını bilir.

Dağıdıcı təfəkkürə malik olan bu ünsürlərin sosial şəbəkələrdən mənəvi terror vasitəsi kimi istifadə etmələri Azərbaycan cəmiyyətində ciddi narazılıq və etirazla qarşılanır. Ümumiyyətlə, sosial şəbəkələrdə təhqir, böhtan xarakterli məlumatların yayılması, insanların şərəf və ləyaqətinin alçaldılması halları birmənalı şəkildə yolverilməzdir. Bu hallara qarşı qanunvericilik səviyyəsində mübarizə aparılması, belə hallara yol verənlərin konkret məsuliyyət daşıması, qanun qarşısında cavab verməsi zəruridir. Dünyanın bir sıra ölkələrində belə təcrübə mövcuddur və Azərbaycanda da bu yanaşma tətbiq edilməlidir.

Sonda bir daha qeyd etmək istəyirəm ki, ölkəmizdə xalq-iqtidar birliyi mövcuddur və bu faktor sabitliyi şərtləndirən və inkişafa zəmin yaradan əsas amildir. Bu gün Azərbaycan dünya miqyasında ən sabit ölkələrdən biridir və Azərbaycan xalqı dövlətimizin başçısının rəhbərliyi ilə həyata keçirilən inkişaf siyasətini dəstəkləyir, iqtidara öz yüksək inam və etimadını qətiyyətlə nümayiş etdirir. Ona görə də bu radikal ünsürlərin Azərbaycanda sabitliyi pozmaq, ölkəmizin inkişafına mane olmaq cəhdləri heç bir nəticə verməyəcək.

# Dərs yükünün uşaq psixologiyasına təsiri nədir?

"Hər bir insanın beyninin tutumu var. Bugünkü uşaqlar daha çox praktik cəhətdən öyrənməyi sevirlər. Lakin bizdə köhnə metodika ilə dərs keçən, uşaqlara əzbərçiliyi öyrədən müəllim var ki, onların verdiyi təhsil bilikyönümlü olduğu üçün bu uşaqları yorur". Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan Psixologiya və Psixoterapeya Assosiasiyasının layihə rəhbəri, psixoloq Nurlana İsmayılova deyib.



O bildirib ki, əslində dərs yükü ağır olmur, sadəcə dərs yükünü düzgün çatdırmayan müəllimlər var: "Hazırkı dövrdə uşaqların hər biri intellektual cəhətdən yüksək səviyyədə inkişaf etmiş olduğundan onlar dərsləri yeni metodlar, son texnologiyaya uyğun şəkildə öyrənməyi sevirlər. Əgər təhsil verən müəllim, pedaqoq dərsi uşağın tələbatına, marağına uyğun formalaşdıra bilmirsə, o zaman bu, uşaqlar üçün ağır dərs yükünə bərabər olur. Amma müəllimlərin verdiyi təhsil inkişafyönümlü, uşaqlarına marağı ilə üst-üstə düşdükdə o zaman şagirdlər dərsə daha maraqla yanaşırlar".

Psixoloq söyləyib ki, hər bir uşağın özünün inkişaf tempi var: "Məktəbəqədər yaş dövründə bütün uşaqlar üçün aparıcı fəaliyyət növü onların müxtəlif oyunlar oynaması olur. Oyun onlar üçün dünyanı dərk etmə, yeni bacarıqlar əldə etmək vasitəsidir. Buna görə də məktəbə yeni gedən uşaqlara müəllimlər tərəfindən güzəştlər edilməlidir. Bu, uşaqların təlim yaşına tam hazır olduğu dövrə qədər davam etməlidir. Uşaqların təlim fəaliyyətinə tam şəkildə hazır olması müxtəlif ola bilir. Müəllimlər hər bir uşağın inkişaf səviyyəsini nəzərə almalıdır".

N.İsmayılova qeyd edib ki, bəzi müəllimlər təhsil metodikasını düzgün anlamadıqları üçün uşaqlara da yanlış tətbiq edərək yükü onların üzərinə atmağa çalışır.

***Nailə Məhərrəmova***

# UNEC-in Türk Dünyası İqtisad Fakültəsinə yeni dekan təyin olunub

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) rektoru, professor Ədalət Muradov Türk Dünyası Araşdırmaları Vəqfinin sədri Közhan Yazğan və TUDİFAK-ın yeni dekanı Həyati Başirli ilə görüşüb.

UNEC-dən AZƏRTAC-a bildirilib ki, görüşdə rektor universitetin ölkənin Türkiyə türkcəsində təhsil verən yeganə ali təhsil müəssisəsi olduğunu, TUDİFAK-ın keyfiyyətli təhsil və tədris ilə hər zaman öndə yer tutduğunu, fakültədə yerli müəllimlərlə yanaşı, Türkiyədən dəvət olunan professorların tədrisə cəlb edildiyini, yeni tədris ilində 8 gənc müəllimin də TUDİFAK-da pedaqoji fəaliyyətə başladığını vurğulayıb.



O, UNEC-də Avropanın aparıcı universitetləri ilə bakalavr və magistr pilləsi üzrə ikili diplom proqramlarının reallaşdırıldığını, Türkiyə universitetləri ilə də bu istiqamətdə əməkdaşlıq etməkdə maraqlı olduqlarını, gələcəkdə TUDİFAK bazasında türk dünyası üçün iqtisadçı kadrlar yetişdirən universitetin yaradılmasının UNEC-in strateji hədəfləri sırasında olduğunu nəzərə çatdırıb.

Həyati Başirli türk dilində yüksək ixtisaslı iqtisadçı kadrların hazırlanması, universitetin beynəlxalq əlaqələrinin genişləndirilməsi, tədrisin keyfiyyətinin daha da artırılması istiqamətində yeni nailiyyətlərə imza atılacağına əmiliyini ifadə edib. Görüşdə Türkiyə universitetləri ilə əlaqələrin genişləndirilməsi, türk dilində dərsliklərin alınması və digər mövzularda fikir mübadiləsi aparılıb.

# "İnformasiya təhlükəsizliyində mətbuatın rolu"

## Bu mövzuda "Səs" qəzetində dəyirmi masa keçirilib

**(Əvvəli ötən sayımızda)**

Ənənəvi olaraq, ölkənin ictimai-siyasi və sosial həyatında böyük önəm kəsb edən və ictimai maraq doğuran məsələlər ətrafında "Səs" qəzeti tərəfindən təşkil olunan dəyirmi masalar cəmiyyətdə böyük maraqla izlənilməkdədir. Bu dəyirmi masalarda xalqımızın tarixi, milli-mənəvi dəyərləri, eləcə də ictimai-siyasi, sosial məsələlər hökumət, dövlət nümayəndələri, millət vəkilləri və ictimai təşkilat rəhbərləri tərəfindən müzakirə olunur.

"Səs" qəzetinin təşkilatçılığı ilə qəzetin redaksiyasında "İnformasiya təhlükəsizliyində mətbuatın rolu" mövzusunda dəyirmi masa keçirilib. Dəyirmi masada millət vəkilləri Musa Quliyev, Elman Nəsirli, Aydın Hüseynov, Kamilə Əliyeva, Jalə Əliyeva, Aydın Mirzəzadə, Azər Badamov, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə və KİV nümayəndələri iştirak ediblər.

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin baş redaktoru, fəlsəfə üzrə fəlsəfə doktoru Bəhruz Quliyev şərəfli, qürurverici dövlətçilik tariximizdən və bu gün ölkə Prezidenti İlham Əliyevin apardığı düzgün, məqsədyönlü siyasət nəticəsində Azərbaycanda əldə olunan uğurlardan, nailiyyətlərdən danışıb. Bildirib ki, bütün sahələrdə olduğu kimi, Azərbaycan milli mətbuatının formalaşması və inkişafı da cəmiyyətin inkişaf xüsusiyyətlərinə uyğun olaraq aparılır: "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 1993-cü ilin iyununda xalqın çağırışı ilə yenidən hakimiyyətə qayıdışından sonrakı dövrdə Azərbaycan mətbuatının inkişafında keyfiyyətcə yeni mərhələ başlandı. Mətbuata qarşı senzuranın ləğv olunması, qanunvericilik bazasının təkmilləşdirilməsi, qəzetlərin maddi-texniki təchizatının yaxşılaşdırılması sahəsində ardıcıl tədbirlər həyata keçirildi. Bütün bunlar, Azərbaycan mətbuatının inkişafına mühüm töhfələr vermiş oldu".

B.Quliyev bildirib ki, Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyev milli mətbuatın inkişafına xidmət edən müvafiq fərman və sərəncamlar imzalayıb. Onu da vurğulayıb ki, yeni dövrün çağırışlarına uyğun olaraq, Azərbaycan mətbuatının da yenilənməsinə və təkmilləşməsinə zərurət yaranıb.

Bugünkü yenilik və dəyişiklik qəzetlərin inkişafına, Azərbaycan maraqlarının dünyaya çıxarılmasına hesablanıb. Mətbuatımız Azərbaycan reallıqlarını dünyaya çatdırır. Amma etiraf edək ki, belə inkişaf dövrünü yaşadığımız halda, sosial şəbəkələrdə Azərbaycan əleyhinə işləyən, eləcə də, fərdi insanların şəxsiyyətinə yönəldilmiş qərəzli mövqelər ortaya qoyulur. Bu da cəmiyyətin ab-havasına təsirsiz ötüşmür. Belə bir situasiyada hansı addımlar atılmalıdır?

ELMAN NƏSİRLİ:

- Bu gün sosial şəbəkələrdə şərəf və ləyaqətin təhqir olunması hallarına çox rast gəlinir. Böhtan və təhqirə görə, sosial şəbəkələrə nəzarət gücləndirilməlidir. Bu, olduqca ciddi məsələ olduğundan, buna hüquqi münasibət olmalıdır. Qanun qəbul edilməli və işlək mexanizm olmalıdır. Dünya qloballaşır. Yalanın, bəd niyyətin sosial informasiya şəbəkəsində yayılması qəbuledilməzdir. Hər bir dövləti və millətin sevən sağlam vətəndaş mövqeyini ortaya qoymalıdır.



### DİASPOR TƏŞKİLATLARI, DİPLOMATİK KORPUSUN NÜMAYƏNDƏLƏRİ FƏAL İŞ APARMALI, BU İNSANLAR MƏSULİYYƏTƏ CƏLB OLUNMALIDIRLAR

VÜQAR RƏHİMZADƏ:

- Sosial şəbəkələrdə mövcud vəziyyətlə bağlı məsələdə ictimai qınaqla yanaşı, hüquqi məsuliyyət ortaya qoyulmalı, hüquqi yanaşma olmalıdır. Belə anormallıq təkcə sosial şəbəkələrdə deyil, bəzi elektron media qurumlarında da var. Bəzən görürsən ki, Azərbaycanda sayt yaradılıb və bu saytın nə hüquqi ünvanı var, nə də kim tərəfindən idarə olunması bəlli deyil. Elektron media qurumları və sosial şəbəkələrlə bağlı hüquqi bir məsuliyyət ortaya qoyulmalıdır. Onun üçün də müəyyən qanunun qəbul olunması və icrası çox vacibdir. Bununla paralel olaraq, ictimai qınaq olmalıdır. Cəmiyyət susmamalı, öz mövqeyini ifadə etməlidir. Hansısa bir dövlətə sığınıb, oradan Azərbaycana böhtanlar atan, vətəndaşlarımızı qərəzli şəkildə təhqir edənlər cəzalanmalıdırlar. Həmin dövlətlərin Azərbaycanda akkreditasiya olunmuş səfirlikləri var və o səfirlər vasitəsi ilə həmin ölkəyə nota verilməlidir ki, sən həmin insanlara ölkəndə yer verirsən, şərait yaratmısan. Bəzən bizim bilmədiyimiz nüanslar da ola bilər. Bəlkə, Azərbaycana qarşı çirkin niyyətləri həyata keçirməyə təşəbbüs göstərənlərin cəhdləridir ki, kimlərsə dəstək verir. Bu məsələdə tam hüquqi yanaşma lazımdır. Düşünürəm ki, qanunla yanaşı, vurğuladığım kimi, ictimai qınağın da olması lazımdır. Mətbuat və sağam düşüncəli jurnalistika münasibət bildirməlidir. Dövlətini, Prezidentini sevən vətəndaş sağlam mövqeyini ortaya qoymalıdır. Diaspor təşkilatları, diplomatik korpusun nümayəndələri fəal iş aparmalı, bu insanlar məsuliyyətə cəlb olunmalıdırlar. Bu gün küçədə kimsə kimisə təhqir edirsə, bunun hüquqi məsuliyyəti var. Necə ola bilər ki, sən dövlətə qarşı təhqiramiz fikirlər irəli sürəsən, sənə cəza tətbiq olunmasın. Onlar müəyyən qrupların əlindədir və alət rolunu oynayırlar, Azərbaycana qarşı çirkin kampaniya aparır, ölkəmiz ətrafında rəy formalaşdırmağa çalışırlar. Təbii ki, onlar şəxsiyyətlərini, mənəviyyatlarını itirmiş insanlardırlar. İstənilən halda onlara ciddi, qanuni baxımdan cəza tətbiq olunmalıdır. Bu gün cəmiyyətimizin sağlam düşüncəli bütün üzvləri sosial şəbəkələrdə anti-Azərbaycan mövqedə olanların, vətəndaşlarımıza qarşı şər-böhtan ataraq, onları tənqid edənlərin cəzalandırılmasını səbirsizliklə gözləyirlər.

### BİRLİYİMİZİ NÜMAYİŞ ETDİRMƏLİ, VƏTƏNSEVƏR, MİLLƏTSEVƏR VƏTƏNDAŞ OLARAQ SƏRT MÖVQE SƏRGİLƏYƏRƏK, MƏNƏVİ VƏTƏNDAŞLIQ BORCUMUZU YERİNƏ YETİRMƏLİYİK

JALƏ ƏLİYEVA:

- Bugünkü dəyirmi masa çox aktual olan bir məsələyə həsr olunub. Bu məsələdə vətəndaşlıq mövqeyi aydın olmalıdır. Dünyada mübarizənin və müharibənin çox üsulları var. Bu mübarizə və müharibələrin başında informasiya mübarizəsi və müharibəsi dayanır. Çağdaş dünyamızda informasiyanın rolu böyükdür. İnformasiya elə bir vəziyyətdədir ki, istəsək də, istəməsək də, qapımızı döyür. Əlimizdə olan telefonla bütün dünyadan məlumat belə ala bilirik. Belə bir dövrdə yaşadığımız zamanda sosial şəbəkələrdə Azərbaycanla bağlı çirkin niyyətlərini həyata keçirmək istəyən bəzi xəstə təxəyyüllü insanlara rast gəlirik ki, onlar dövlətimizin müxtəlif təbəqələrində təmsil olunan insanlara qarşı təhqiramiz ifadələr işlədirlər. Sosial şəbəkələrdən sui-istifadə edən şəxslər bilməlidirlər ki, nə onlar özləri, nə də bilərəkdən və ya bilməyərəkdən qulluqlarında dayandıqları dairələr, mərkəzlər bununla heç nəyə nail ola bilməyəcəklər, Azərbaycanı öz müstəqil inkişafından, müstəqil dövlətçilik xəttindən geri döndərə, sapdıra bilməyəcəklər. Azərbaycan üçün taleyüklü məqamlarda Qərbdən olan anti-Azərbaycan kampaniyasında millət olaraq birliyimizi nümayiş etdirməli, vətənsevər, millətsevər vətəndaş olaraq sərt mövqe sərgiləyərək mənəvi, vətəndaşlıq borcumuzu yerinə yetirməliyik. Sosial şəbəkələrdə dövlətçiliyimizə qarşı qərəzli fəaliyyət, birmənalı olaraq, qəbuledilməzdir.

Azərbaycan müstəqil dövlətdir, söz və mətbuat azadlığının bərqərar olunduğu ölkədir. Baxmayaraq ki, bu yaxınlarda "Freedom House" təşkilatı növbəti hesabat siyahısında son dövrlər Azərbaycanda aparılan uğurlu siyasi-iqtisadi islahatlar, beynəlxalq layihələrdə dövlətimizin donor və təşəbbüskar rolu nəzərə alınmayıb. İnsan hüquq və azadlıqlarının qorunması, fikir plüralizmi ilə bağlı keçdiyi yola işıq salınmayıb. Adıçəkilən təşkilatın hesabatında növbəti dəfə ölkəmiz əsassız qərəzlə üzləşib. Azərbaycan gerçəklikləri ölkəmizin demokratik dəyərlərə söykəndiyini bir daha sübut edir. Əgər bu gün ölkəmizdə bu qədər sayda qəzet, internet saytları, televiziyaları varsa, deməli, Azərbaycan söz azadlığına və fikir azadlığına önəm verir.

Sosial şəbəkələrdə qərəzli mövqedə olanlara qarşı həmrəy olmalıyıq. İnternetin, mətbuatın azad olması o demək deyil ki, hər kəs istədiyi şəkildə dövlətinə və xalqına şərböhtan yağdıra bilər. Təbii ki, Azərbaycan

# "İnformasiya təhlükəsizliyində mətbuatın rolu"

*Bu mövzuda "Səs" qəzetində dəyirmi masa keçirilib*





Konstitusiyası ilə hər bir vətəndaşın hüquqları qorunur. Düşünərəm ki, belə insanlarla qanunun dili ilə daşışmaq və qanunları bir qədər sərtləşdirmək lazımdır.

## ÖLKƏMİZDƏ HÖKM SÜRƏN AZADLIQDAN, DEMOKRATİK MÜHİTDƏN SUİ-İSTİFADƏ EDƏN BƏZİ İNSANLAR SOSİAL ŞƏBƏKƏLƏRİ, ONLAYN MEDİANI SAVAŞ VƏ SÖYÜŞ MEYDANINA ÇEVİRİRLƏR

KAMİLƏ ƏLİYEVA:

- Hər keçən gün inkişaf etməkdə olan texnologiya həyatımızın böyük bir hissəsinə sirayət etməkdədir. Virtual məkan genişləndikcə, internetdə mövcud olan sosial şəbəkələrin də sayı artır. Gündəlik həyatımızda sosial şəbəkələrin müsbət tərəflərini müşahidə etsək də, kifayət qədər mənfi tərəflərini də görürük. Sosial şəbəkələrdə yaranmış vəziyyət bu gün çox böyük aktuallıq kəsb edir. Son zamanlar ölkəmizdə hökm sürən azadlıqdan, sərbəstlikdən sui-istifadə edən bəzi insanlar sosial şəbəkələri, onlayın medianı, internet resurslarını, savaş və söyüş meydanına çevirirlər. Azərbaycanda söz azadlığı, mətbuat azadlığı mövcuddur. Bu gün özlərini dünyada insan hüquqlarının müdafiə olunduğu, demokratik dəyərlərin bərqərar olunduğu ölkə olaraq təqdim edənlərdə bu qadağalar var. Amma Azərbaycan mühiti tamamilə fərqlidir. Hər kəs öz fikrində, düşüncəsində azaddır və istədiyi bir şəkildə düşüncələrini paylaşa bilir. Bu, demokratik bir mühitin göstəricisidir. Amma yaradılan mühit o demək deyil ki, sən qərəzli mövqeyini ortaya qoyasan. Onların belə mövqeyinin bir amalı var - Azərbaycanla bağlı həqiqəti əks etdirməyən məlumatlara, məqamlara yer vermək, mövcud durumumuza kölgə salmaq. Təbii ki, Azərbaycana qarşı qərəzli mövqe tutan, ölkəmizin dünyadakı artan nüfuzuna və imicinə qısqanc yanaşanlar əsassız iddialar irəli sürürlər. Azərbaycan dövlətini dünya birliyinin, beynəlxalq ictimaiyyətin gözündən salmağa, onun nüfuzuna və imicinə zərbə vurmağa çalışsalar da, beynəlxalq müstəvidə söz sahibi olan Azərbaycana xələl gətirə bilməzlər. Onlar ötən əsrin 90-cı illərində olan Azərbaycana qayıtmaq istəyir, hərc-mərclik, anarxiya və böhranın yenidən yaranmasına çalışırlar. Bu baxımdan, bütün vasitələrlə ölkəmizdə görülən işləri, gözdən salmağa, onları ləkələməyə çalışırlar, ölkə, dövlət, hökumət rəhbərliyinə, Milli Məclisə, millət vəkillərinə qarşı olmazın hədyanlar, təhqirlər, böhtanlar və iftiralar yağdırırlar.

Bu gün güclü dövlət olan Azərbaycana qarşı aparılan çirkin niyyətlər və kampaniyalar heç bir nəticə verə bilməz. Onlar kiminsə əlində alət və oyuncaqdırlar. Onları nə Azərbaycanın inkişafı, nə işğal altında olan torpaqlarımız maraqlandırır. Əlbəttə ki, xaricdə oturub, Azərbaycan əleyhinə kampaniya aparanlar bu gün xalqımızın qınağına səbəb olub, onların yolu düzgün deyil. Ona görə də, qanunvericiliyimizdə dəyişiklіklər etməliyik. Mən bu yaxınlarda Zaqatala və Balakəndə öz seçicilərim qarşısında görüş keçirərkən, birmənalı olaraq, anti-Azərbaycan mövqeyində olan insanlara qarşı hiddətlərini bildirdilər. Qeyd olundu ki, biz Cənab Prezidentləyik, Onun siyasətini dəstəkləyirik. Onlar məndən bir millət vəkili olaraq, xahiş etdilər ki, bunun qanunvericilik şəklində qarşısı alınsın. Dövlətimizə və bəzi insanlara qarşı aparılan bu kampaniyalar xalq tərəfindən pislənilir.

Elə bu günlərdə Şamaxıda baş verən zəlzələdən sonra Azərbaycan Prezidentinin təbii fəlakətdən əziyyət çəkən insanlarla görüşü, fəlakətin yaratdığı fəsadların aradan qaldırılması ilə bağlı göstərişlər verməsi nümunəvi addımdır. Azərbaycan yeganə dövlətdir ki, təbii fəlakətlərin aradan qaldırılması, ziyan çəkmiş evlərin bərpası üçün maliyyə vəsaiti ayırıb. Ölkə başçısının baş verən təbii fəlakət zamanı məsələni diqqətdə saxlaması və şəxsi tapşırığı əsasında problemlərin aradan qaldırılması istiqamətində atılan addımlar, ən əsası isə, zəlzələ bölgəsinə səfər edərək vətəndaşların yanında olması, insanlar üçün dayaq və stimuldur. Hər bir vətəndaş, bir daha əmin oldu ki, Azərbaycan dövləti və Prezidenti hər zaman onların yanındadır.

## DÜNYANIN ƏN İNKİŞAF ETMİŞ SİVİL ÖLKƏLƏRİNİN QANUNVERİCİLİYİNDƏ SOSİAL ŞƏBƏKƏLƏRLƏ BAĞLI SƏRT QANUNLAR VAR

AZƏR BADAMOV:

- Bugünkü məsələ çox aktual və hamını narahat edən məsələdir. Son illərdə bütün dünyada geniş istifadə olunmağa başlayan sosial şəbəkələr müsbət tərəfləri ilə yanaşı, cəmiyyətə mənfi təsirlərini də göstərməkdədir. Biz kimlərinsə sosial şəbəkələrdən istifadə edərək, müxtəlif radikal çağırışlar etmələrinin şahidi oluruq. İnsanlar var ki, onlar Azərbaycana qarşı söyüş kampaniyasını keçirirlər. Onların məqsədi heç də Azərbaycanı 90-cı illərə qaytarmaq deyil, onların məqsədi Azərbaycanı Suriyaya, İraqa, Livana döndərməkdir. Onların məqsədi Azərbaycanda olan siyasi sabitliyi pozmaqdır. Bu siyasi sabitlik bizim böyük qazancımız, böyük nailiyyətimizdir ki, onu əlimizdən almaq istəyirlər.

Ancaq əfsuslar olsun ki, beynəlxalq təcrübədə sosial şəbəkələrin bu cür mənfi təsirlərinin qarşısının alınması üçün hər hansı konkret nümunələr yoxdur. Sosial şəbəkələrə qadağaların qoyulması isə dünya ictimaiyyəti tərəfindən birmənalı qarşılanmır, sosial şəbəkələrin qadağan edilməsi insan azadlıqlarının buxovlanması kimi qiymətləndirilir.

Bugünkü dəyirmi masanın mövzusu "İnformasiya təhlükəsizliyində mətbuatın rolu"dur. Mətbuat hər zaman ənənəvi olaraq cəmiyyəti qidalandırmışdır. Mətbuatın rolu reallığı düzgün təbliğ etmək, onu cəmiyyətə düzgün çatdırmaqdır. Bu gün mətbuat qlobollaşıb. Sosial şəbəkələr, internet yaranıbdır. İnternetin önündə dayanan hər bir insan dünyaya çıxış, bir pəncərə əldə etmiş olur. Amma bu, o demək deyildir ki, ondan sui-istifadə etsin. Kiməsə qarşı təhqir, söyüş ifadələri işlətmiş olsun. Belə hallara qarşı sərt qanunlar qəbul olunmalıdır. Dünyanın ən inkişaf edən sivil ölkələrinin qanunvericiliyində sosial şəbəkələrlə bağlı sərt qanunlar var. Heç kimə icazə verilmir ki, kiminsə şəxsiyyətini təhqir etsin. Bu gün bu qanunlar bizdə də tətbiq olunmalıdır. Şəbəkə özbaşına buraxıla bilməz, əgər belə olarsa, anarxiya baş verə bilər. Təbii ki, belə yaşadığımız durumda sosial şəbəkələrlə bağlı sərt tədbirlərin görülməsi mütləqdir.

AYDIN MİRZƏZADƏ:

- Bugünkü mövzu siyasətlə məşğul olub-olmayan hər bir insanı maraqlandıran bir məsələdir. Biz demokratik-hüquqi bir dövlətdə yaşayırıq. Bu dövlətin qurucusu Ulu Öndər Heydər Əliyevdir. Onun sayəsində Azərbaycanda vətəndaş müharibəsinin qarşısı alındı, stabillik yarandı, mətbuatdan senzura götürüldü. Ölkəmizdə mətbuat azadlığı, fikir azadlığı var, demokratik azadlıq qorunur. Bu və digər amillər Azərbaycanın qazancıdır. Azərbaycanı tutduğu yoldan heç nə çəkindirə bilməz. Müstəqilliyimizin qorunması və inkişaf etdirilməsi üçün həm dünya təcrübəsindən, həm də milli təcrübəmizdən istifadə edirik. Konkret informasiya hüquqi ilə bağlı deməliyəm ki, hər bir vətəndaşın informasiya hüququ var və bu istiqamətdə dövlət üzərinə düşən vəzifəni yerinə yetirir.

Son illərdə bütün dünyada geniş istifadə olunmağa başlayan sosial şəbəkələr müsbət tərəfləri ilə yanaşı, cəmiyyətə mənfi təsirlərini də göstərməkdədir. Biz kimlərinsə sosial şəbəkələrdən istifadə edərək, müxtəlif radikal çağırışlar etmələrinin şahidi oluruq. Ölkəmizdə internet və sosial şəbəkələr üzərində hər hansı inzibati nəzarət yoxdur və bu da medianın müstəqilliyinin daha bir göstəricisidir. Saytlar, sosial şəbəkələr də nəzarət altında olmalıdır. Bu, heç də, insanların söz azadlığına qəsd və yaxud fikir azadlığının məhdudlaşdırılması deyil. Sadəcə olaraq, bu, Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin daha mükəmməl şəkildə qorunması üçün atılan addımlardır.

Müasir dövrdə müəyyən maraqlara xidmət edən, xüsusi dairələrin sifarişi ilə fəaliyyət göstərənlər Azərbaycana qarşı belə qərəzli mövqenin ifadəçiləridirlər. Asılılıq onları belə fikirləri səsləndirməyə sövq edir. Ölkəmizdə mətbuatın müstəqilləşməsi, obyektivlik və tərəfsizlik nümayiş etdirməsi, qərəzdən-böhtandan uzaq olması, milli-mənəvi dəyərlərə hörmətlə yanaşması ilə bağlı ciddi addımlar atılıb. Bütün görülən işlərin məntiqi nəticəsi olaraq, artıq Azərbaycan mediası müasir dövrün tələblərinə uyğun inkişaf mərhələsinə qədəm qoyub.

Bu gün biz müstəqil bir dövlətdə yaşayırıq. Müstəqilliyimizi və uğurlarımızı qorumalıyıq. Müasir dövrümüzdə Azərbaycanın iqtisadi inkişafı, ölkədə hökm sürən siyasi sabitliyin məntiqi nəticəsi olaraq, bütün sahələrdə olduğu kimi, milli-mənəvi dəyərlərimizin qorunması və dünyada təbliği ilə bağlı möhtəşəm layihələr reallaşır. Bu layihələr Azərbaycanı dünyaya böyük iqtisadi gücə, siyasi iradəyə malik olan dövlət kimi təqdim edir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Elman Nəsirov: "Freedom House" "Soyuq müharibə"nin tör-töküntüsüdür

***"Freedom House" formal baxımdan beynəlxalq qeyri-hökumət təşkilatıdır. 1941-ci ildə yaradılıb. Mənzil qərargahı Vaşinqtonda yerləşir. Missiyası dünya ölkələrində vətəndaşların siyasi və mülki hüquqlarının vəziyyəti ilə bağlı monitorinq aparmaq və onun nəticələrinə dair müvafiq hesabatlar dərc etməkdir. Göründüyü kimi, ilk baxımdan diqqətəlayiq və vacib missiyadır. Lakin "şeytan detallarda yerləşir".***

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, Yeni Azərbaycan Partiyasının beynəlxalq əlaqələr komissiyasının katibi, siyasi elmlər doktoru, professor Elman Nəsirov deyib.

Deputat bildirib ki, reallıqda bu qurum "pulunu verib mahnını sifariş edən"in əlində siyasi təzyiq alətindən başqa bir şey deyil. Bir az da mətləbə varsaq, görərik ki, özünü "Azadlıq evi" kimi təqdim edən bu üzdəniraq qurumda azadlıqdan əsər-əlamət yox imiş. Heç ola da bilməzdi. Bir təşkilatın ki, təxminən 30 milyon dollara bərabər büdcəsinin təqribən 25 milyon dolları ABŞ hökumətinin ayırdığı qrantlar hesabına formalaşırsa, axı o necə qeyri-hökumət təşkilatı statusunu daşıya bilər? Bu, mümkünsüzdür. Deməli, belə qurumun siyasi sifarişlər əsasında işləyəcəyi təkcə onun rəhbərliyi üçün bəlli həqiqət deyil. Bu həqiqəti artıq dünya ictimaiyyəti də dərk edir. Eyni zamanda, orta statistik dünya vətəndaşı onun da fərqindədir ki, ölkəsində demokratiyanın vəziyyəti ilə bağlı məhz "öz arşınları" ilə ölçü götürürlər. Metodologiyasını da məhz özləri icad ediblər. Başqasını əsla yaxın qoymazlar. Necə deyərlər, sifariş verən də bəlli, pulu alan da məlum. Sifariş isə düz 47 il əvvəl verilib - 1972-ci ildə. Müəllifi də Vaşinqton Universitetinin müəllimi olmuş Raymond Qasterdir. Bu metodologiyanın yaranma tarixi "Soyuq müharibə"nin tüğyan etdiyi dövrə təsadüf edir. Həmin metodologiyaya görə, dünya ölkələrində vətəndaşların siyasi və mülki hüquqlarının vəziyyəti 3 yarlıq üzrə müəyyən edilirdi: "azad ölkə", "qismən azad ölkə" və " qeyri-azad ölkə". Əslində isə sifariş Vaşinqtondan gəldiyindən Sovet İttifaqı başda olmaqla sosialist ölkələrində demokratiyanın boğulduğu, heç bir insan hüquqlarının olmadığı fonunu yaradıb, ABŞ-ın liderliyi ilə Qərb dünyasının "demokratiya aguşu"nda uyuduğunu beynəlxalq ictimai fikrə sırımaq idi. Başqa sözlə, birincilər "qeyri-azad" ölkə, ikincilər isə onun tam əksi. Bununla da "Soyuq müharibə" dövrünün postulatlarına adekvat olaraq sifarişçinin (ABŞ) qarşı tərəf (Sovet İttifaqı) üzərində ideoloji və strateji üstünlüyünə nail olmaq əsas hədəf idi. Son hədəfi isə ideoloji düşməni məhv etmək ideyası üzərində qurulmuşdu. Bu məqsəd üçün sifarişçi "Freedom House" təşkilatını "demokratiya silahı" ilə silahlandırmışdı.

Artıq dünya dəyişib. Daha ikiqütblü dünya qarşıdurması yoxdur. Təkqütblü dünya reallığı da bu gün sual altındadır. Çoxqütblü dünyanın formalaşması prosesi dönməz xarakter almaqdadır. Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Qeyri-sabit qlobal proseslər şəraitində ikiqütblülükdən sonrakı dünya" adlı fundamental tədqiqat əsərində qeyd etdiyi kimi, "ABŞ və müttəfiqləri təkqütblü dünyanın saxlanmasında israrlıdırlarsa, dövlətlərin mütləq əksəriyyəti çoxqütblü dünya lehinədirlər".



Bir sözlə, "Soyuq müharibə" tarixin arxivində olsa da, onun qalığı olan "Freedom House" və onun "boyat metodologiyası" hələ də siyasi sifarişləri yerinə yetirmək mərəzindən qurtula bilməyib. Sahibləri onu yeni reallığa adaptasiya etdirmək üçün vəsaitlərini əsirgəmirlər. Yeni şəraitdə hədəfdə yeni hədəflərdir - ilk növbədə, müstəqil və milli maraqlara söykənən siyasət aparan suveren dövlətlər. O dövlətlər ki, hər hansı beynəlxalq siyasi dairələrin, beynəlxalq təşkilatların və böyük dövlətlərin diktəsi altında deyil, məhz xalqının milli mənafeyindən irəli gələn müstəqil siyasət aparır və heç bir beynəlxalq avantüraya qoşulmur. O dövlətlər ki, ərazisində sabitlik və təhlükəsizlik mühiti hökm sürür. O dövlətlər ki, xalq ilə hakimiyyəti arasında vəhdət var.

Azərbaycan məhz belə dövlət olduğundan "Freedom House" kimi fəaliyyətində qərəz, yalan, iftira və ləkələmək kimi vasitələri işlək vəziyyətə gətirmiş və sahibinin əlində siyasi təhdid alətinə çevrilmiş bir üzdəniraq qurumun hədəfindədir. Bu qüvvələr heç cür həzm edə bilmirlər ki, nədən böyük olmayan bir müsəlman ölkəsi olan Azərbaycan bu qədər sürətlə inkişaf etsin? Nədən Azərbaycan xalqı birmənalı şəkildə öz prezidentinin arxasında dayanısın və onun bütün təşəbbüslərini müdafiə etsin? Nəyə görə Azərbaycan dövlətinin rəhbəri müstəqil və xalqın siyasi iradəsinə əsaslanan siyasət yeritsin? Bu suallar anti-Azərbaycan qüvvələrin, o cümlədən "Freedom House"un rəhbərliyinin "yuxusuna haram qatır." Onlar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanvarın 11-də Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında səsləndirdiyi fikirlərdən çox narahat olurlar: "Bildiyiniz kimi, keçən il dünyanın müxtəlif bölgələrində, o cümlədən bizim bölgəmizdə çox xoşagəlməz proseslər gedirdi, yeni risklər, yeni təhdidlər yaranır. Əvvəlki illərdə başlanmış münaqişələr, qanlı toqquşmalar davam edir, bir çox yerlərdə sabitlik pozulur, kütləvi etiraz aksiyaları geniş vüsət alır. Bu mənfi mənzərə fonunda Azərbaycanın uğurları özünü daha da qabarıq şəkildə büruzə verir. Azərbaycan inkişaf, tərəqqi, sabitlik ölkəsidir. Dünyada və bölgədə gedən proseslərdən asılı olmayaraq Azərbaycan öz müstəqil yolu ilə, inkişaf yolu ilə uğurla gedir və gedəcək." Bu gerçəklikdən təşviş keçirən "Freedom House" ənənəvi davranışına sadiq qalaraq "Dünyada azadlıq-2019" adlı hesabatında bir dirijor çubuğunun işarəsi ilə Azərbaycan üçün 11 bal müəyyən edir və yuxarıda qeyd etdiyimiz arşını ilə ölçərək onu "qeyri-azad" ölkə siyahısına salır. Müqayisə üçün, işğalçı və bir milyondan çox soydaşımızın bütün hüquqlarını total şəkildə pozan Ermənistan 51 bala layiq görülərək "qismən azad" ölkə kimi qiymətləndirilir. Bu hesabatı hazırlayan "Azadlıq evi"nin "azad ekspertlər"i "Dünyada azadlıq-2009" hesabatında da Ermənistanda siyasi zorakılığın və vətəndaş hüquqsuzluğunun apogeyi sayılan 2008-ci ilin 1 mart gülləbaranına göz yummuş, həmin ildə də bu despotik və orta əsr təfəkkürü ilə idarə olunan dövləti "qismən azad" ölkə statusuna yüksəltmişdi. Eyni yanaşma Azərbaycan xalqına və bütövlükdə bəşəriyyətə qarşı Xocalı soyqırımının əsas təşkilatçısı olan hərbi cani Serj Sarkisyanın 10 il ərzində idarə etdiyi cinayətkar rejimə münasibətdə də istisna təşkil etməyib. Məhz bu rejimdən ən çox ziyan çəkənin, adi elementar hüquqları hər an pozulanın da məhz elə erməni xalqı olduğu həqiqəti "Freedom Hause"un "iti gözü"ndən müəmmalı şəkildə yayınıb. Əslində burada müəmmalı bir şey də yoxdur. Sadəcə, dünyamızın nizamı pozulub. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun təbirincə desək, "dünyada güc ilə hüquq arasında balans pozulub. Dünyada baş verən bütün ədalətsizliklərin kökündə dayanan əsas amil odur ki, bu balans gücün xeyrinə pozulub". Elə bu səbəbdən də ikili standartlar dünya siyasətinə həyasızcasına pərçim edilməkdədir.

Dünyada bu ədalətsizliyi formalaşdıran beynəlxalq siyasi dairələrə qarşı Azərbaycan Prezidenti İlham Əliyev hər zaman öz haqq səsini ucaldır. Dövlətimizin başçısı deyib: "Biz bütün prinsipial məsələlərlə bağlı beynəlxalq kürsülərdən səsimizi ucaldırıq. Ədalət və qanunun aliliyini təbliğ edirik və müdafiə edirik".

Dünyada haqqın, ədalətin, qanunun müdafiəsi ilə bağlı prinsipial və qətiyyətli mövqe ortaya qoyduğuna və bu istiqamətdə əməli addımlar atdığına görə, ilk növbədə Azərbaycan Prezidenti İlham Əliyev və onun uğurla idarə etdiyi Azərbaycan dövləti beynəlxalq islamofob və ksenofob qüvvələrin hədəfindədir. Həmin qüvvələrin "demokratiya sapandı" və "Soyuq müharibə"nin tör-töküntüsü olan "Freedom House"dur.

Qoy bu anti-Azərbaycan qüvvələr bir həqiqəti birdəfəlik "qulaqlarında sırğa" edib saxlasınlar. Onların Azərbaycanı Suriyaya, Bakını Dəməşqə çevirmək niyyətləri ürəklərində qalacaq. Xalqın gözü tərəzidir. Xalqımız çox gözəl bilir ki, bu bədxah, xəbis qüvvələrin əsl niyyətləri nədən ibarətdir. Müdrik xalqımız elə bu məntiqdən çıxış edərək öz rəhbəri - Prezident İlham Əliyev ətrafında daha sıx birləşərək həmin beynəlxalq və daxili qaragüruhçu qruplara bir səslə xəbərdarlıq edir: "Çəkin çirkli əllərinizi Azərbaycandan!".

## Azərbaycanın dövlət sərhədini pozmaq istəyən şəxs zərərsizləşdirilib



Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti (DSX) tərəfindən dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi sahəsində tədbirlər davam etdirilir. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, fevralın 11-də saat 00:10 radələrində Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Yardımlı rayonunun Buravar kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən İran İslam Respublikası ərazisindən Azərbaycan Respublikası istiqamətində hərəkət edən bir nəfər naməlum şəxs müşahidə olunub.

Sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, xidməti ərazi qapadılıb. Sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək sərhəd pozucusu təqib edilib və havaya xəbərdarlıq atəşi açılıb. Lakin həmin şəxs əmrə tabe olmayaraq İran İslam Respublikası istiqamətində geriyə doğru qaçıb. "Dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq sərhəd naryadı tərəfindən silah tətbiq olunub və sərhəd pozucusu aldığı güllə yarasından hadisə yerində ölüb. Sərhəd nümayəndəliyi xətti ilə İran İslam Respublikasının sərhədçilərinə hadisə barədə dərhal məlumat verilib.

Sərhəd pozucusunun üzərinə baxış zamanı Azərbaycan Respublikasının vətəndaşı 1968-ci il təvəllüdlü Seyfullayev Zülfüqar Hüseynqulu oğluna məxsus Azərbaycan Respublikasının ümumvətəndaş pasportu, hadisə yerinə ilkin baxış zamanı isə bir gecə görmə cihazı aşkar olunub. Hazırda Dövlət Sərhəd Xidmətinin və Hərbi Prokurorluğun əməkdaşları tərəfindən hadisə ilə əlaqədar zəruri əməliyyat-istintaq hərəkətləri həyata keçirilir.

## Kubanın Azərbaycandakı səfiri AZƏRTAC-ın ispan dili bölməsinin fəaliyyəti ilə tanış olub

Kubanın Azərbaycandakı səfiri Alfredo Fidel Nieves Portoundo AZƏRTAC-da yeni fəaliyyətə başlayan ispan dilində informasiya bölməsinin işi ilə tanış olub.

Diplomat bölmənin əməkdaşları ilə görüşüb, xəbərin ispan dilində təqdimatı, ispandilli auditoriya üçün Azərbaycanla bağlı maraqlı ola biləcək informasiyalar barədə fikir mübadiləsi aparıb.



AZƏRTAC-ın ispan dilində xəbər yayımına başlamasını önəmli addım hesab edən səfir bunun Azərbaycan haqqında ispandilli ölkələrdə geniş təsəvvür yaranmasına və bu ölkələrin agentlikləri ilə əlaqələrin genişlənməsinə təkan verəcəyini söyləyib.

AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanov ispan dilində xəbər yayımının agentlik üçün prioritet istiqamətlərdən biri olduğunu vurğulayıb. O, Kubanın Prensa Latina informasiya agentliyinin AZƏRTAC ilə əməkdaşlıq müqaviləsi imzalamaq təşəbbüsünü yüksək qiymətləndirərək deyib: "Dünyanın ən çox danışılan ikinci dil olan ispan dilində xəbərlərimizin yayılması Azərbaycan haqqında məlumatların böyük auditoriyaya, Kuba və digər ispandilli ölkələr barədə xəbərlərin isə yerli oxuculara çatdırılması deməkdir. Prensa Latina ilə əməkdaşlıq sənədinin imzalanması birgə layihələr həyata keçirmək, informasiya və təcrübə mübadiləsi aparmaq üçün geniş imkanlar yarada bilər".

AZƏRTAC-ın Azərbaycanda ispan dilində xəbər mənbəyi olmasının önəmini qeyd edən səfir Alfredo Fidel Nieves Portoundo Prensa Latina ilə müqavilənin imzalanması üçün dəstək verməyə hazır olduğunu deyib. "Agentliklərimiz arasında tərəfdaşlıq hər iki ölkə haqqında məlumatların geniş yayılması üçün yaxşı zəmin ola bilər", - deyə diplomat bildirib. Səfirə AZƏRTAC-ın hazırda Dünya Xəbər Agentlikləri Konqresinə, Asiya və Sakit Okean Ölkələri İnformasiya Agentlikləri Təşkilatına sədrlik etməsi, dünyanın 21 ölkəsində müxbir məntəqəsinin fəaliyyət göstərməsi, bir sıra ispandilli informasiya agentlikləri ilə ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələri barədə də məlumat verilib.

# Yaqub müəllim olduğu kimi

***Fevralın 10-da Azərbaycan tarix elmində, ictimai-siyasi həyatında mühüm xidmətləri olan akademik Yaqub Mahmudovun doğum günü keçirildi. AMEA-nın həqiqi üzvü, Tarix İnstitutunun direktoru, Milli Məclisin deputatı, "Şöhrət və Şərəf" ordenlərinin sahibi, dövlət mükafatı laureatı olan Yaqub müəllim, bu dəfə də, dövlət başçısının diqqətindən kənarda qalmadı.***

Fevralın 9-da Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə tarix elmimizin öyrənilməsində uzunmüddətli səmərəli fəaliyyətinə görə, Yaqub Mahmudov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edildi. Bu rütbədə olan tanınmış sima haqqında yazmaq həm məsuliyyət tələb edir, həm də cəsarət. Mən yalnız qısaca öz şəxsi səciyyələnriməmlə kifayətlənməli olacam. Çünki onsuz da bu günlərdə alimlər və elm ictimaiyyəti o qədər dəyərli fikirlər ifadə edəcəklər ki, mənim yazdıqlarım onların yanında, bəlkə də, görünməz olacaq. Amma fikirləşəndə ki, elmi rəhbərim və dissertantı olduğum institutun direktoru, hələ məktəb illərində hər gün dərsə apardığım tarix kitablarının müəllifi barədə mən də fikir bildirməliyəm, onda cəsarətə gəldim.



Yaqub müəllim, nəinki tarixçilər üçün, həm də müxtəlif sahələrin mütəxəssiləri, bütövlükdə, cəmiyyət üçün, ümumi mənada böyük müəllim, ustad ziyalıdır. Onun müzakirə etdiyi mühüm tədbirlərin əksəriyyətində dissertant və ya jurnalist kimi iştirak etmişəm. Bizim cəmiyyətdə dinləməklə bağlı, açığını deyim ki, həmişə müəyyən problemlər olub. Tədbirlərdə reqlament qaydalarını pozanlar haqqında hamı birmənalı düşünmür. Yerdən bəzən asta replikalar belə eşidilir. Lakin mən akademik Yaqub Mahmudovun reqlamenti nəzərə almayan çoxşaxəli və məzmun etibarilə dərin çıxışlarında bir nüansın şahidi olmuşam. Tədbirdə tələbələrdən tutmuş alimlərə, yüksək vəzifəli məmurlara qədər hamı onu sonacan dinləmiş və hətta çıxışını böyük maraqla qarşılamışlar. Bir sözlə, uzun çıxışlarla əhatə olunan tədbirləri yarımçıq tərk edəcəyini, digər işlərinin arxasınca gedəcəyini öz-özlüyündə hesablamış şəxslər belə Yaqub müəllm danışarkən, saatı unutmuşlar.

Yaqub müəllimin geniş erudisiyası, dərin intellekti və milli-ideoloji baxımdan insanların kütləşmiş damarına toxunması, həm də bunu xüsusi emosionallıqla büruzə verməsi istənilən insanı düşündürmüş və alimi diqqətlə dinləməyə qeyri-ixtiyari sövq etmişdir. Bu istənilən alimin arzusunda olduğu bir istedaddır ki, məhz Yaqub müəllim Yaradan tərəfindən mükafatlandırılıb. Lakin bizlər akademik Yaqub Mahmudovu həm də zəhmətkeş alim kimi tanıyırıq. Onun məhsuldar fəaliyyəti nəticəsində tarix elmimizdə mühüm araşdırmalar aparılmış, rəhbərlik etdiyi institutun fəaliyyəti, sözün yaxşı mənasında, medianın diqqətində olmuş, tariximizə və qədim mədəniyyətimizə, dövlətçiliyimizə işıq tutan hər bir əsər cəmiyyətimizdə maraqla qarşılanmışdır.

Mən bir jurnalist kimi də Yaqub müəllimi səciyyələndirmək istərdim. Parlamentarilər ilə mütəmadi görüşdüyümdən və onların fəaliyyətini izlədiyimdən, əminliklə deyə bilərəm ki, Yaqub müəllim deputat kimi də seçildiyi bölgənin insanları ilə yaxından təmasdadır və bunula daim medianın diqqət mərkəzindədir. İndiki zamanda müxtəlif qurum rəhbərlərinin otağına yaxınlaşmağın o qədər də asan olmadığı bir zaman kəsiyində Yaqub müəllim öz seçicilərinə, dissertantlarına, işçilərinə və tələbələrinə geniş vaxt ayırır. Sözün doğrusu, institutların direktorları arasında otağı bu qədər qələbəlik olan alim çox azdır.

Akademik və deputat olaraq Yaqub müəllimin, müşahidə etdiyim və doğrusu, mənə çox xoş gələn xüsusiyyətlərindən biri də odur ki, onu heç vaxt xidməti kabinetində kresloda oturan görməmişəm. Yaqub müəllim, tələbələri və işçiləri ilə həmişə dəyirmi masada əyləşərək söhbətləşir. Bu da qarşı tərəfdə özünəinam və rəhbərə güvən yaradır. Baxmayaraq ki, akademikin kifayət qədər sərtliyi də var, amma biz həmişə onu həlim və mehriban görmüşük.

Qeyd. 2012-ci ildə AMEA Tarix İnstitutuna dissertant qəbul edildim. Xahişsiz-minnətsiz. Lakin bir məsələni qeyd etməliyəm ki, Yaqub müəllimin razılığını almaq üçün akademiyaya bir xeyli gedib-gəlməli oldum. Saatlarla otağının nə vaxt boş olacağını gözləmişəm. Arada inciyib, getmək də istəmişəm. Amma iradəmə sığınıb, səbr etmişəm. Bir dəfə elmi şuranın iclasında məni göstərərək adımı yazdırdı və ucadan dedi: "Bu cavan oğlan tarixçi-alim olmaqda, deyəsən, çox israrlıdır." Mən qəbul edildim. Sonra anladım ki, Yaqub müəllim məni asanlıqla ona görə qəbul etməmişdi ki, bu yolun nə qədər çətin və keşməkeşli olduğunu göstərsin, həm də iradəmi yoxlasın.

Bəli, Yaqub müəllim sərt və prinsipial göründüyü kimi, həm də incə duyumu olan, ağsaqqal məsləhətini verməkdən usanmayan insandır. Bu il 80 yaşı tamam oldu. Biz ona, ilk növbədə, cansağlığı arzulayırıq. Mərhum şairimiz Zəlimxan Yaqub müsahibələrinin birində dedi ki, "həmişə can sağlığını kimsə-kimsəyə arzulayanda, mənə qəribə gəlirdi. Deyirdi ki, əşi bu insanlar elə yapışıblar cansağlığından. İnsan insana vəzifədə ucalmaq, xoşbəxtlik, pul, övlad sevinci arzulmaqdansa, birinci cansağlığı arzulayır. Özüm xəstələnəndən sonra anladım ki, hər şeyin fövqündə məhz can sağlığı dayanırmış."

İndi sevimli şairimizin təbirincə desəm, mən də Azərbaycan tarixçilərinin ağsaqqalı, ərazi bütövlüyümüz və milli azadlıq uğrunda ümumxalq hərəkatından, xalq hərəkatından yaxşı tanıdığımız, həmişə milli mövqeyi ilə seçilən, ermənilərin hər yerdə layiqli cavabını verməsi ilə özünü sübut etmiş, üsyankar təbiətli alimimiz Yaqub Mahmudova 80 illik yubileyi münasibətilə, məhz cansağlığı arzulayıram. Əsas arzumuz budur ki, bundan sonrakı ömür payını da əvvəlkitək, cəmiyyətimizin nüfuzlu simalarından, qəbul edilən ziyalılarından biri olaraq yaşasın.

***Anar TURAN,***
***AMEA-Tarix İnstitutunun dissertantı,***
***"Oğuz" Müstəqil Araşdırmaçılar Qrupunun təsisçisi.***

# Daşkəsəndə növbəti səyyar görüş keçirilmişdir



Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev fevralın 11-də rayonun ucqar dağlıq ərazisində yerləşən Çanaqçı kəndində idarə, müəssisə, təşkilatların, hüquq-mühafizə orqanların rəhbərlərinin və ictimaiyyətin nümayəndələrinin iştirakı ilə sakinlərlə görüş keçirmişdir. Görüşə gəlmiş Çanaqçı kənd sakinlərini salamlayan Əhəd Abıyev vətəndaşlarla keçirilən hər bir görüşdən məmnun olduğunu, qaldırılan problemlərin və verilən təkliflərin yerinə yetirilməsi üçün aidiyyəti qurumlar tərəfindən konkret və əməli tədbirlər görüldüyünü diqqətə çatdırmışdır. Bildirmişdir ki, Qaraqullar-Çanaqçı, Çanaqçı-Zivlan avtomobil yolunun təmiri, mühüm sosial və mədəni obyektlərin inşası yerli əhalinin böyük razılığına səbəb olmuşdur. Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev çıxış edərək, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə aparılan geniş abadlıq və quruculuq işləri barədə ətraflı məlumat vermişdir. Ötən dövrdə respublikamızda yeni yolların çəkilişi, içməli su, qazlaşdırma, elektrik enerjisi ilə təminat, meliorasiya ilə bağlı layihələr uğurla icra olunmuşdur. Əhəd Abıyev 29 yanvar 2019-cu ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nda təhsil müəssisələrinin əsaslı təmiri və tikintisi sahəsində Çanaqçı kəndində modul tipli tam orta məktəbin tikintisinin nəzərdə tutulduğunu sakinlərin diqqətinə çatdıraraq, onları təbrik etdi. Bildirdi ki, Dövlət Proqramı hazırlanarkən, yerlərdə vətəndaşlar tərəfindən irəli sürülən təkliflər əsas götürülmüşdür.



Sonra rayon icra hakimiyyətinin başçısı istər şəxsi, istərsə də kəndlə bağlı təklifi, müraciəti və şikayəti olan sakinlərə öz müraciətlərini etmələrini xahiş etdi. Kənd sakinlərindən Qurbanov Pirverdi Əlirza oğlu, Quliyev Xəqani Əli oğlu, Tanrıverdiyeva Lalə Şirvan qızı, Məmmədov Ramiz İlyas oğlu çıxışlarında qeyd etmişlər ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin gündəlik diqqəti və qayğısı nəticəsində ölkə əhalisinin rifah halı gündən-günə yaxşılaşır. Bunu gündəlik həyatlarında açıq-aşkar hiss edirlər. Kənd sakinlərini onları narahat edən məsələlər barədə də fikir və təkliflərini bildirmiş, problemlərin həlli ilə əlaqədar müraciət etmişlər. Müraciətlər işlə təmin olunma, kəndə təbii qaz xəttinin çəkilməsi, vətəndaşın həyətində olan əyilmiş elektrik dayağının dəyişdirilməsi, kənd tibb məntəqəsinin təmir olunması, eləcə də, digər şəxsi məsələlər olmuşdur. Rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev qaldırılan məsələlərin həlli ilə əlaqədar aidiyyəti qurumların rəhbərlərinə tövsiyə və tapşırıqlarını vermişdir. Təkliflərin əksəriyyəti yerində həll olunmuş, digərlərinin həlli üçün aidiyyəti üzrə müraciətlərin edilməsi tapşırılmışdır.

***RƏFİQƏ KAMALQIZI***

# YAP Binəqədi rayon təşkilatının kollektivi İmadəddin Nəsiminin abidəsini ziyarət edib



Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı müvafiq Sərəncam əsasında 2019-cu ilin "Nəsimi İli" elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatı tərəfindən keçiriləcək silsilə tədbirlərə artıq start verilib. Fevralın 8-də silsilə tədbirlər çərçivəsində YAP Binəqədi rayon təşkilatının kollektivi görkəmli Azərbaycan şairi İmadəddin Nəsiminin Bakı şəhərində yerləşən abidəsinin ziyarət edərək, şairin əziz xatirəsini ehtiramla yad edib. Şairin abidəsi önünə gül dəstələri qoyulduqdan sonra, bədii hissə nümayiş etdirilib. Binəqədi rayonu 246 nömərli tam orta ümumtəhsil məktəbinin 10-cu sinif şagirdləri Aysun Ağammədovanın ifasında "Cananı mənim sevdiyimi can bilir ancaq" qəzəli və Mehriban Məmmədovanın ifasında "Sığmazam" qəzəli səsləndirilib. İrəvan Azərbaycan Dövlət Dram Teatrının aktyorunun ifasında Nəsimi obrazını canlandırıb və böyük şairin qəzəlini ifa edib.

Ziyarət iştirakçılarda xoş təəssüratlarla yadda qalıb. Sonda xatirə şəkli çəkdirilib.



***ZÜMRÜD BAYRAMOVA***

# Əli Kərimlinin dələduz olduğu məhkəmədə sübuta yetirilməkdədir

*Şahidlər və təqsirləndirilən şəxslər yeni faktlar açıqlayıblar*

**Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, AXCP- Müsavat kimi partiya sədrlərinin əksəriyyəti bu və ya digər formada xarici anti-Azərbycan qüvvələrə bağlıdırlar. Onlardan maliyyə vəsaiti alır və qarşılığında pozucu əməllərə cəhdlər göstərirlər.**



Bunu sübut edən kifayət qədər misallar göstərmək olar. Hazırda Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Eldar İsmayılovun sədrliyi ilə haqlarında Cinayət Məcəlləsinin müvafiq maddələri ilə təqsirləndirilmələrinə dair cinayət işi üzrə məhkəmə iclası keçirilən prosesdə Rüstəmov Saleh Məhərrəm oğlu, Rüstəmli Vidadi Valeh oğlu, Məhərrəmov Aqil Əli oğlu, Həsənov Babək Qəzənfər oğlu və Nəsirov Ruslan Şamil oğlunun Rusiyadan AXCP sədri Ə.Kərimliyə pul göndərdiklərini etiraf ediblər. Məhkəmədə Elçin Əsgərbəyli, Cavid Məsimli, Tural Mehdixanov və Cavanşir Abışov şahid qismində dindirilərkən, onlar maliyyə vəsaitlərini topladıqdan sonra "Sberbank" vasitəsi ilə Ə.Kərimliyə çatdırdıqlarını söyləyiblər. Məhkəmədə, həmçinin, açıqlandı ki, Gədəbəy rayonunun keçmiş icra başçısı Saleh Rüstəmov Rusiyada yaşayan azərbaycanlılardan pul toplayıb, AXCP-yə və Ə.Kərimliyə göndərib. Diqqət çəkənməqam ondan ibarətdir ki, ilk dəfə olaraq, mövcud faktlar qarşısında carəsiz qalan Ə.Kərimli Baş Prokurorluq və DİN-in birgə bəyanatından sonra açıqlama verdi ki, həqiqətən də, Rusiyadan ona S.Rüstəmov vasitəsilə hər ay pul göndərilib, ancaq bu pul 412 min dollar deyil, azdır. Ə.Kərimli maliyyə vəsaitini az göstərməklə, ətrafında faiz gözləyən şəxsləri aldatmağa çalışır. Ancaq hiyləgərlikdə və tamahlarının iti olmasında Ə.Kərimlidən heç də geri qalmayan Cəmil Həsənli, Gültəkin Hacıbəyli, Oqtay Gülüliyev, Eldəniz Quliyev və digərləri qəpiklərindən belə keçmək fikrində deyillər. Bu baxımdan da, bütün məhkəmə proseslərində iştirak etməklə, təqsirləndirilən şəxslərdən və şahid ifadələrindən müfəssəl məlumat əldə etməyə çalışırlar. Təbii ki, əldə olunacaq məlumat əsasında Ə.Kərimli ilə haqq-hesab çəkəcəklər. Prosesin sonunun necə olacağını və hansı məlumatlar, açıqlanacağını, bizim tərəfdən demək çətin olsa da, ancaq bir real fakt yenidən ortaya çıxdı. Ə.Kərimli dələduzdur. O, pul xatirinə milli və dövlətçilik maraqlarını satmaqla yanaşı, ortaqlarını da aldatmaqdan və onları gedər-gəlməzə yola salmaqdan belə çəkinməyən şəxsdir.

## Əli Kərimli atmağa və aldatmağa adətkardır

Siyasi prosesləri, qismən də olsa analiz etsək, bir daha o qənaətə gəlmək olar ki, Ə.Kərimli üçün fəaliyyət heç də siyasətdə uğur əldə etmək və nəyəsə nail olmaq deyil. Başlıca şərt, nə yolla olursa- olsun, pul qazanmaq, qrantlar əldə etmək və xarici ölkələrdə mülklər almaq və obyektlər tikdirməkdir. Xatırlatmaq lazımdır ki, bir qədər əvvəl də, rusiyalı general Sakit Allahverdiyev adlı şəxs də mətbuata çıxaraq, bəyan etmişdir ki, 2012-ci ildən 2015-ci ilə qədər hər ay Ə.Kərimliyə və Qənimət Zahidə pul göndərir. S.Allahverdiyev etiraf edib ki, həmin vəsaitləri "Azadlıq" qəzetinin nəşrinin davam etdirilməsinə və jurnalistlərin maaşlarının ödənilməsinə görə ödəsə də, Ə.Kərimli və Q.Zahid həmin vəsaiti öz şəxsi ehtiyaclarına xərcləyiblər. Bir sözlə, fakt budur ki, Qərbəki bəzi anti-Azərbaycan qüvvələrlə yanaşı, Rusiyanın qaranlıq dairələri də ara-sıra AXCP sədri Ə.Kərimliyə maliyyə yardımları göstəriblər. Lakin o da faktdır ki, pul ayıran şəxslər Ə.Kərimli ilə əməkdaşlıq etməklə, böyük yanlışlığa yol verdiklərini başa düşüb, onunla münasibətləri kəsirlər. Yeni müxalifət düşərgəsindəki Ə.Kərimliyə olan inamsızlıq eynilə xarici maraqlı dairələrlə də yaşanmaqdadır. Təbii ki, bu cür xarakterə və düşüncəyə malik partiya sədri ilə sonrakı mərhələlərdə də kimlərinsə yolu davam etdirəcəkləri inandırıcı deyil. Çünki Ə.Kərimli ancaq münasibət qurduğu dostlarına və təşkilatlara atmaq və ya aldatmaq haqqında düşünür. Məhz buna görə də, Ə.Kərimlinin ətrafında olan şəxslər ondan uzaq durmağa və əlaqələri kəsməyə çalışırlar. Bir epizodda Ə.Kərimli ilə bir sırada dayanan "Real"ın sədri İlqar Məmmədov sonradan böyük səhvə yol verdiyini və bir daha Ə.Kərimli ilə əməkdaşlıq etməyəcəyini bildirib.

Xatırladaq ki, müxalifətin yanvarın 19-da keçirilən rüsvayçı mitinqində "Milli Şura" ilə yanaşı, "Real" da iştirak etmişdir. Hətta İ.Məmmədov da tribuna önünə keçərək çıxış etmişdir. Ancaq Ə.Kərimlinin özünü müxalifətin lideri, aparıcı şəxs kimi təqdim etməsi, eləcə də, xarici maraqlı dairələrə dolayısı ilə özünü kütlənin aparıcı siması kimi təqdim etməyə çalışması İ.Məmmədovda Ə.Kərimliyə qarşı nifrət hissini daha da gücləndirib. Məhz buna görə də, İ.Məmmədov bir daha "Milli Şura"nın mitinqlərinə qatılmayacağını bildirib.

## İlqar Məmmədov Ə.Kərimli və İsa Qəmbəri müxalifətin üz qarası hesab edir

Ümumiyyətlə, görünən odur ki, İ.Məmmədov, nəinki Ə.Kərimli ilə, eləcə də, digər müxalifət partiya funksionerləri ilə əlaqələr qurmaq, münasibətlər saxlamaq fikrində deyil. Bu məsələdə İ.Məmmədovun bağlı olduğu xarici maraqlı dairələrin rolu və göstərişi olduğunu demək çətin olsa da, nəzəri cəlb edən mövcud fakt bundan ibarətdir ki, İ.Məmmədov İsa Qəmbər, Arif Hacılı, Cəmil Həsənli və Ə.Kərimli ilə hansısa bir tədbirdə görünmək fikrində deyil. Nəzərə almaq lazımdır ki, İ.Məmmədov bir qədər əvvəl Müsavatın keçmiş başqanı İ.Qəmbər haqqında şok effekti yaradan ittihamlarla çıxış etmişdir. İ.Məmmədov bildirib ki, İ.Qəmbər öz şəxsi maraqlarını milli maraqlardan üstün tutur. "Bir şeyi xatırladım. "Wikileaks" təzə-təzə üzə çıxanda, baxmışdım ki, görəsən, Amerika səfirliyinin məxfi sənədlərində adım hansı kontekstlərdə çəkilir. 30 dəfə adıma rast gəldim. Onun 1/3 aiddir Qarabağ münaqişəsinə, 1/3 regiondakı geosiyasi duruma, 1/3 isə ölkədə demokratik dəyişikliklər mövzusuna. Başqa siyasilərin göstəricilərinə də baxdım. Məsələn, İsa Qəmbərin adını 50 dəfə çəkiblər və ondan yalnız 1, ya da 2 dəfə Qarabağ münaqişəsi kontekstində, o da ötəri. Adamın başı kürsü davasına elə qarışıb ki, bir nömrəli milli mövzunu tam unudub. Önəmli o deyil ki, sən diplomatlarla söhbətin haqqında hansı məlumatlar yayırsan: Onların səninlə söhbət haqqında yazdıqları daha önəmlidir. Hər halda, bu dəfə məzmuna görə Müsavat başqanını qınamıram: Adam düzünü yayıb, Qarabağ yenə qaldı kənarda".

Bir sözlə, tərəflərarası qarşıdurma əvvələr də olub. Sadəcə, budəfəki qarşıdurma "bu hənanın o hənadan oladmadığını" göstərir. Çünki İ.Məmmədov daha açıq formada Ə.Kərimliyə və A.Hacılıya, eləcə də, İ.Qəmbərə qarşı iddialar, bəzən isə təhqiramiz ifadələr səsləndirir. Bu isə, müxalifətin "boss"ları tərəfindən asanlıqla həzm edilə bilməz. Ona görə də, geniş şəkildə hücuma keçiblər. Deməli, qarşıda bizi yeni və daha maraqlı siyasi tamaşalar gözləyir. Ən ağrılı və acınacaqlı durum AXCP sədri Ə.Kərimlinin həyat və fəaliyyətinə daxil olacağı şübhəsizdir. Çünki yuxarıda qeyd etdiyim kimi, Bakı Ağır Cinayətlər Məhkəməsində Ə.Kərimliyə pul ayrılması və həmin pulların mitinqlər, qarşıdurmalar yaradılmasına xərclənməsi barədə şahid ifadələri və təqsirləndirilən şəxslərin etirafları qeyd olunmaqdadır. Bu isə, növbəti mərhələdə Ə.Kərimlinin arzuolunmaz situasiya ilə üzləşəcəyindən xəbər verir.

**İ.ƏLİYEV**

# Razi Nurullayev hansı iddialarında haqlıdır?

*AXCP: "Radikal terrorçu qüvvələrlə iş birliyi quran Əli Kərimlidir"*

**Alternativ AXCP-nin, Əli Kərimlinin partiya adına və sədrliyinə iddia etməsinə qarşı ictimailəşdirdiyi növbəti bəyanatı, iki təşkilat arasında mövcud olan qarşıdurmanı yenidən alovlandırıb. Dəfələrlə bu ətrafda bəyanatlar səsləndirilsə də, ictimai rəyin Ə.Kərimlinin iddialı olduğu siyasi təşkilatı gerçək AXCP kimi tanıması doğru deyil. Belə ki, bu AXCP dəfələrlə parçalanıb və parçalanmaların hər birində, bilavasitə Ə.Kərimlinin marağı var. Məhz Razi Nurullayevin Ə.Kərimlidən ayrılaraq, alternativ AXCP adlı qurum yaratması və bu qurumun gerçək AXCP adına iddialı olduğunu bəyan etməsindən sonra tərəflər arasındakı qarşıdurmalar pik həddə çatıb.**



### Razi Nurullayev: "Əli Kərimlinin şəxsinə aiddir və onun AXCP ilə heç bir bağlantısı yoxdur"

Bu arada, daha bir maraqdoğurucu məqam diqqəti çəkib. Belə ki, bir müddət öncə, Baş Prokurorluğun AXCP-nin Azərbaycanda "İslam dövləti yaratmaq məqsədi olan radikal terrorçu qüvvələrlə iş birliyi" qurması barədə ictimaiyyəti məlumatlandırması R.Nurullayevin sədri olduğu siyasi təşkilatın - alternativ AXCP-nin Ə.Kərimli ilə heç bir bağlantısının olmaması bəyanatı ilə nəticəsini tapıb. "Bildiririk ki, bu, Ə.Kərimlinin şəxsinə aiddir və onun AXCP ilə heç bir bağlantısı yoxdur" deyə qeyd olunub.

O da, sirr deyil ki, Ə.Kərimli hələ partiyanın mərhum sədri və lideri olmuş Əbülfəz Elçibəyə qarşı ən ağır xəyanətlərdə bulunub və yalnız ona deyil, bütövlükdə, Azərbaycan dövlətinin maraqlarına qarşı çıxıb, bu gün də eyni hal baş verir.

### Antimilli mövqedən çıxış edənə məxsus təşkilatın abbreviaturasında "Azərbaycan", "xalq" kimi ifadələr olmamalıdır!

Ona görə də, R.Nurullayev Kərimlinin AXCP-nin onun sədri olduğu AXCP-yə, necə deyərlər, urcah olmasının əleyhinədir və ona görə də, "Bir daha xatırlatmaq istərdik ki, özünü "AXCP sədri" kimi qələmə verən Ə.Kərimli Azərbaycan Xalq Cəbhəsi Partiyasını təmsil etmir" deyə bəyanatında bildirir.

Xatırlatmaq yerinə düşərdi ki, antimilli və antidövlətçi mövqelərdən çıxış edən birinə məxsus təşkilatın abbreviaturasında "Azərbaycan", "xalq" kimi ifadələri olan, ancaq buna rəğmən, Azərbaycan və xalq əleyhinə fəaliyyət göstərən siyasi təşkilatın dövlət qeydiyyatında olması doğru deyil və R.Nurullayevin Ə.Kərimliyə qarşı qoyduğu iddia haqlı mövqe sayıla bilər.

**Rövşən RƏSULOV**

## Daxili işlər orqanları tərəfindən həftə sonu ərzində 41 cinayətin üstü "isti izlər"lə açılıb

Respublikanın daxili işlər orqanları tərəfindən həftə sonu ərzində 41 cinayətin üstü "isti izlər"lə açılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 21 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 21 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 7 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 7 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə üç nəfər ölüb, on nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 23, qanunsuz saxlanılan silah-sursatla bağlı bir fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 65 nəfər saxlanılıb.

SİYASİ RAKURS

# Söyüş müxalifəti - kirli məqsəd və xəyanət məramı çoxdan bəllidir

*Cəmiyyət bəlalərinə aşırı nifrət edir, onların qanun qarşısında cavab verəcəkləri günü səbirsizliklə gözləyir!*

***Siyasi mübarizəni şərəf və ləyaqət məfhumundan üstün tutaraq, onu opponentinə qarşı söyüş və həqarətlərlə tətbiq etmək, ilk növbədə, milli-mənəvi əxlaq dəyərlərimizi ayaqlar altına atmaq anlamını daşıyır. Bunu edənlər isə, bu gün sosial şəbəkələrdə "xalq" - "millət" deyə bağırıb, özlərinə dividendlər qazanmağa cəhd edən "liderlər" və onların "beşinci kolon" nümayəndələridirlər ki, sözügedən vasitələrlə, guya öz "mübarizələrində" üstünlük qazandıqlarını sanırlar. Amma bunun belə olmadığını özləri də yaxşı dərk edirlər.***







Bilirlər ki, sərgilədikləri hərəkətləri sağlam düşüncəli rəy tərəfindən ən sərt şəkildə və hiddətlə qınanılır. Daha doğrusu, "söyüş müxalifəti" deyilən ucuz yığnaq, bu yolla üzləşdikləri məğlubiyyətlərini, əslində, etiraf etmiş olurlar. Yəni siyasi rəqiblərinə tərəf nə qədər çox söyüşlərə, həqarətlərə və küfrlərə yol verirlərsə, bir o qədər də məğlub olduqlarını etiraf edirlər.

## Bu, heç də belə deyil!

Bələləri unutmamalıdırlar ki, özlərinə rəva görmədikləri söyüşləri başqalarına qarşı tətbiq edirlərsə, bunun hüquqi tərəfləri də var. Belə ki, bütün sivil ölkələrdə olduğu kimi, Azərbaycan da dünyada beynəlxalq konvensiyalara və hüquqi prinsiplərə daim əməl edən dövlət kimi tanınır. Hər bir Azərbaycan vətəndaşı vəzifəsindən, sosial təbəqəsindən asılı olmayaraq, qanun qarşısında bərabərdir və hər bir şəxs etdiyi əmələ görə, qanun qarşısında məsuliyyət daşıyır. Bəli, bu gün xarici ölkələrdə, necə deyərlər, "şirə-pələngə" dönən söyüş dağarcıqları da var ki, onlar, onsuz da, Azərbaycanın dövlətçilik maraqlarına qarşı düşmənçilik mövqeyi nümayiş etdirirlər və düşünürlər ki, "siyasi sığınacaq" aldıqları hər hansı Avropa ölkəsində oturub, sosial şəbəkələr vasitəsi ilə dövlətinin mövqeyini qoruyanları çirkin söyüş hədəflərinə tuturlarsa, onların bu əməlləri cavabsız qalacaq və s. Bu, heç də belə deyil, çünki beynəlxalq konvensiyalar və qanunlar mövcuddur, zamanı çatanda, hər kəs haqq etdiyi cəzasını mütləq alacaq. Yəni bu reallığı bəlkə də bir çoxları qeyri-reallıq kimi düşünə bilər, amma əlahəzrət zaman və qanun hər şeyi tam dəqiqliyi ilə sübut edəcək, özü də tezliklə!

## Avropa ölkələrinə bit-birələrtək daraşmış cinayətkar çetelər daha bir faktoru unutmamalıdırlar ki...

"Siyasi mühacir", "dissident" adı altında və onlara dağıdıcı müxalifət partiyalarının "liderləri" tərəfindən verilmiş saxta sənədlərlə Avropa ölkələrinə bit-birələrtək daraşmış bu cinayətkar çetelər daha bir faktoru unutmamalıdırlar ki, onların bir çoxu, hələ də, yaşadıqları ölkələrdə oturum izni almayıblar və hər an bu ölkələrin miqrasiya xidmətləri sənədlərini yoxlayıb, saxtalıqlarını ifşa edə bilər. Çox yəqin ki, son bir neçə ildə Azərbaycan dövlətinin rəhbərliyindən tutmuş, dövlətin maraqlarını dəstəkləyən insanları söyüş dalğasına qonaq edənlər, qısa zamanda, ciddi yoxlamalara məruz qalacaqlar. Bax onda...

...Onda növbə deportasiyaya, ölkədən çıxarılmaya qədər gəlib-çatacaq və onda həmin sosial şəbəkə "şirpələnglərinin" hansı vəziyyətə düşdüklərinin şahidlərinə çevriləcəyik. Özü də mütləq çevriləcəyik. Buna heç kimin zərrə qədər də şübhəsi olmamalıdır!

## Bir-birlərinin üzlərinə tüpürənlər və şərəfsizliyi etiraf edib, boyunlarına alan siyasi pəzəvənglər toplumu

İndi isə, qayıdaq sözügedən məsələnin digər tərəfinə. Bayaq da, qeyd elədiyimiz kimi, Azərbaycan dövlətinə qarşı aparılan bütün qarayaxma, söyüş və təhqir kampaniyaları, son nəticədə, ağır fiaskoya uğrayıb, kampaniyanı təşkil edənlərin çirkin məqsədləri dəfələrlə ifşa olunub. Çünki Azərbaycan cəmiyyəti Avropada oturub, "Facebook", "Youtube" və s. sosial şəbəkə vasitələri ilə hər gün canlı yayımlar etmək kimi öhdəliyi olanların xəyanətkar davranışlarına heç vaxt dəstək verməyib. Bu vaxta qədər hansı yalanlarla çıxış ediblərsə, son nəticədə ifşa olunaraq, rüsvayçı vəziyyətə düşüblər. Cəmiyyət üçün artıq hər şey aydındır: bu cinayətkar dəstənin üzvləri yalnız xarici xüsusi xidmət orqanları qarşısında deyil, eləcə də, erməni lobbisinin pulları qarşılığında (!) öhdəlik götürüb, öz dövlətlərinə qarşı çirkin oyunlar qurur, ölkəni qarşıdurmalara və qeyri-sabitliyə çəkməyə çalışırlar.

Digər tərəfdən, biz bu ünsürlərin bir-birləri ilə də qızğın qarşıdurmala getdiklərini dəfələrlə görmüşük. Məhəmməd Mirzəli ilə Tural Sadıqlının, hətta canlı yayımları vasitəsi ilə bir-birlərinə "şərəfsiz" və daha ağır söyüşlər söyüb, üzlərinə tüpürmələrinə qədər gördüyümüz bu reallıqlar onların hansı qeyri-insanlığa malik olduqlarının bariz göstəricisidir.

Yaxud Mirzəlinin evində arvadının ona "şərəfsiz" deyib, onun isə bu sözü özünə söyüş kimi götürməməsi etirafını da incələsək, bu ünsürün hər şeyini pula satdığını, bundan sonra da sata biləcəyini əminliklə deyə bilərik.

Bu reallığı Emin Milli, Orduxan Teymurxan və başqaları arasında da görmüşük, bilirik və zaman-zaman ictimai rəyin diqqətinə çatdırırıq. Bütün bunlar isə, sübut edir ki, bunların dərdi pul dərdiymiş - pullarını ödə və bir-birlərinə necə söyüş söydüklərini müşahidə elə. Bu, onların daxillərindəki çirkablıqlarının açıq mənzərəsidir və söz yox ki, cəmiyyət bəlalərinə nifrət edir, eyni zamanda, qanun qarşısında cavab verəcəkləri günü səbirsizliklə gözləyir!

**Rövşən NURƏDDİNOĞLU**

# Cəmiyyət müxalifətdən imtina edib

***Yaşamağın və fəaliyyət göstərməyin yolunu hay-küy qaldırmaqda, şər-böhtan səsləndirməkdə görən müxalifətin dağıdıcı qanadı aradabir mitinqlər keçirməyə cəhdlərdə göstərir. Amma maraqlıdır ki, bunlar ayrı-ayrılıqda aksiyalar keçirməyi planlaşdırırlar. Sual yaranır, niyə müxalifət bu dərəcədə mitinqlərin keçirilməsinə həvəslidir, başqa siyasi mübarizə metodu yoxdurmu? Söhbət etdiyimiz müsahiblərimiz müxalifətin müstəqil düşüncəyə və qərarlara malik olmadığını, onları xarici maraqlı qüvvələrin təlimatlandırdığını bildirdilər.***

<u>"Yurddaş" partiyasının sədri Mais Səfərli:</u> **"Müxalifətin son zamanlar fəallaşması xarici təsir və göstərişlə bağlıdır"**



- Radikal müxalifətin son zamanlar fəallaşmasını ciddi-cəhdlə təhrik edən kənar qüvvələr var. Anbisiyaların olması ilə bağlıdır. Çünki müxalifət liderlərinin hər biri ana müxalifət olmaq istəyir. Bu iddialar isə absurd və mənasızdır.

<u>"Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas:</u> **"Müxalifətin böyük əksəriyyəti parça-parçadır"**



- Müxalifət son zamanlar birləşməyə çalışır. Bu birləşmənin məqsədi aydındır, yəni bilirsiniz ki, Azərbaycandakı müxalifətin böyük əksəriyyəti parça-parçadır. Parça-parça olmaqlarına baxmayaraq, bunların xaricdən komanda verənləri var. Yəni bunlar xaricdən alınan komanda əsasında dünənə qədər bir-birini didən, parçalayan müxtəlif məsələlərdə xəyanətdə ittiham edən qüvvələr bu gün xarici qüvvələrin təsiri ilə bir ayara gəlirlər. Məsələn, deyək ki, "Qarabağ Komitəsi" yaradıblar. "Qarabağ Komitəsi"nin məqsədi nədir? Qarabağı bəhanə etmək və xalqı cəlb etmək, sonra həmin o xalqı cəlb edə bilsələr, bundan hakimiyyətə qarşı istifadə etmək. Yəqin 19 yanvar mitinqi yadınızdadır. Oradan siyasi məhbuslara azadlıq şüarı adı altında keçirilən mitinqin gedişində mövzunu dəyişdilər və başladılar radikal çıxışlar etməyə. Deməli, bunlar bir-birinin ardınca mitinqləri elan etməklə ölkədə sabitliyi pozmaq, aranı qarışdırmaq və xaricdən aldıqları maliyyə hesabına ölkənin sakit həyatını pozmaqla məşğuldurlar. 25 ildir ki, təkrar-təkrar bu şüarlarını eyni adamlardan eşidirik. Bir vaxt vardı bunların 30-35 yaşları var idi. İndi bunlar qocalıb 60-65 yaşlarındadır, ancaq yenə də adətlərini tərgitməyiblər. 25-30 il keçməsinə baxmayaraq, yenə bunların havası 1990-cı ilə gedir. Ona görə də, xalq bunların özünü doğrultmayan, illərdən bəri bir nəticə verməyən sərsəm mitinqlərinə heç vaxt qoşulmayacaq. Bir sözlə, onlar tərəfindən keçirilən bu mitinqlərə ehtiyac yoxdur. Azərbaycan xalqı bu mitinqlərə inanmır və öz Prezidentini dəstəkləyir.

caq müxalifət təmsilçiləri tərəfindən keçirilən aksiyalara onların qohumlarından başqa heç kəs qatılmır. Müxalifət elə hesab edir ki, küçələrə çıxmaqla, əhalini öz başlarına toplaya biləcəklər. Fakt isə bundan ibarətdir ki, bu günə qədər onlar tərəfindən keçirilən aksiyaların heç bir nəticəsi olmayıb. Çünki xalqın müxalifətə heç bir siyasi dəstəyi yoxdur. Bu baxımdan, növbəti aksiyaların əvvəlki aksiyalardan heç bir fərqi olmayacaqdır. Bir sözlə, radikal müxalifət düşərgəsində özlərini lider hesab edən şəxslər cəmiyyətin gözündən düşmüş insanlardır. Yəni cəmiyyət müxalifətdən imtina edib. Sadəcə olaraq, müxalifət başqa bir fəaliyyət növü ilə məşğul ola bilmədiyindən bu cür anormal hərəkətlərə əl atır. Digər faktı da unutmaq olmaz ki, müxalifət düşərgəsini təmsil edən liderlər heç vaxt bir-birlərinin varlıqlarını qəbul etməyiblər. Yəni hər zaman biri özünü digərindən üstün tutub. Ona görə də, müxalifət təmsilçiləri ayrı-ayrılıqda aksiyalar keçirirlər. Bu ünsürlərin bir-birini qəbul etməməsinin birinci səbəbi həmin liderlərin şəxsi am-

**GÜLYANƏ**

# "Sasna Srer" müharibə istəyir?

Ermənistanın "Sasna Srer" partiyası separatçı rejimin "paytaxtında" dəyirmi masa keçirib və aşkar erməni həyasızlığını əks etdirən sərsəm bəyanat yayıb. "Madrid prinsiplərinə alternativ" adı altında keçirilən dəyirmi masada Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mərhələli həllini əks etdirən Madrid prinsiplərindən imtina tələb olunub. SİA news.am-a istinadən xəbər verir ki, dəyirmi masadan sonra ictimailəşdirilən saxta bəyanatda Madrid prinsiplərinin imtinanın olunması, Minsk qrupunun egidası altında aparılan danışıqlarda erməni tərəfinin ərazilərin güzəştə gedilməsi məntiqindən kənarda dayanması, eləcə də, bu kimi dəyirmi masaların keçirilməsi ilə yanaşı, həmin tədbirlərə digər siyasi güclərin və təmsilçilərinin iştirakının vacibliyi kimi məsələlər yer alıb. Bu kimi "tələblərin" irəli sürülməsi isə, Ermənistan və qondarma "DQR" rejimi üçün kifayət qədər baha başa gələ bilər. Belə ki, Dağlıq Qarabağın işğal olunması faktı bütün mühüm beynəlxalq təşkilatlarda öz əksini tapıb və Azərbaycanın ərazi bütövlüyü tanınaraq, dəstəklənib, qətnamələr qəbul olunub. Bu mənada, erməni həyasızlığını əks etdirən bənzər və sərsəm bəyanatlar ərazilərimizin işğaldan azad edilməsi ilə nəticələnən müharibəyə səbəb ola, Ermənistanın isə ümumiyyətlə məhvi prosesini sürətləndirə bilər.



**Rövşən RƏSULOV**

# “Freedom House” təşkilatı “yalançı QHT”-dir

***Öz ənənəsinə müvafiq olaraq “Freedom House” təşkilatı dünya ölkələrində azadlığın vəziyyətinə dair hesabat hazırlamağa alışqandır və hər dəfə olduğu kimi, bu il də bu hesabat, bu alışqanlıq öz qərəzi ilə əvvəlki ənənənin davamını təsdiq edir. Bu təşkilatın yaydığı sonuncu hesabatda Azərbaycanı qeyri-azad ölkələr siyahısına daxil etməsi təəccüblü olsa da, gözlənilən idi. Ona görə gözlənilən idi ki, ölkəmizə qarşı qərəz, eyni zamanda, ikili standartlar siyasəti və bir sıra çirkli niyyətlər sözügedən təşkilatın strategiyasının qayəsini təşkil edir.***

Maraqlıdır, azadlığı hansı bir meyarla, hansı vasitə ilə ölçməyə, qiymətləndirməyə əsaslanılır? Fəlsəfi kateqoriya kimi azadlıq ölçüyəgəlməz bir anlayışdır. Hazırda əgər yalan detektoru, hissləri, həyəcanı ölçən cihazlar olsa da, azadlığı ölçən nə bir texniki vəsait, nə də hansısa avadanlıq var. Belə olan halda, bəlli olur ki, azadlığın qiymətləndirilməsi yalnız nisbi və subyektiv səciyyə daşıya bilər. Subyektiv qiymətləndirilmə isə, öz növbəsinə, subyektin qərəzli, yaxud qərəzsiz olmasından, mövqeyindən, münasibətindən və maraqlarından asılıdır. Belə bir qiymətləndirmənin nə kimi dəyərinin olacağı, görəsən, “Freedom House” kimi qərəzli bir təşkilatı nə zamansa maraqlandırıbmı? Yaxud bu təşkilatının özünün öz hesabatına kiminsə etibar edəcəyinə ümidi varmı?

### “Freedom House”-un müəmmalı kriteriyalara, metodlara əsaslanan hesabatı heç kimə lazım deyil və hər il hazırlanması da mənasızdır

Bir məsələ də diqqətdən yayınan deyil ki, “Freedom House” deyilən təşkilatın hansı kriteriyalara əsaslanması, hesabat tərtib edərkən, istifadə etdiyi metodlar hələ indiyədək müəmmalı olaraq qalır. Heç kimə aydın deyil ki, hansı əsasa görə ölkələrin azadlığı bu təşkilat tərəfindən qiymətləndirilir. Daxilində hərc-mərclik, ikili hakimiyyət, özündən əvvəlki hakimiyyət nümayəndələrinə qarşı təzyiqlərin tətbiq edildiyi ölkə, özü də təcavüzkar və terrorçu bir ölkə nə vaxtsa bu təşkilatın hesabatında azad ölkə kimi qeyd olunsa, buna zərrə qədər təəccüb edən olmayacaq. Çünki əvvəla, bu subyektiv bir ölçü hesab olunacaq, digər tərəfdən də, ermənipərəstliyin və lobbiçiliyin fonunda təəccübə əsas belə qalmır. Belə olan halda maraqlıdır, kimə lazımdır bu hesabat nə üçün hər il hazırlanır? Bəlli olur ki, “Freedom House”-un müəmmalı kriteriyalara və metodlara əsaslanan hesabatı heç kimə lazım deyil və hər il hazırlanması da mənasızdır.

Ölkəmizin müstəqil xarici siyasət yeritməsi, qlobal və regional layihələrin reallaşdırılması və bütün sahələrdə əldə etdiyi iqtisadi-siyasi uğurlar, təbii ki, dünyanı idarə etmək niyyətində olanlar üçün arzu olunan deyil və qıcıqlanmaları da bu baxımdan başadüşüləndir. Qərəzli münasibətin hardan qaynaqlandığı hamıya bəllidir. Birləşmiş Ştatlar hazırda Ermənistanda baş verən hadisələrə ssenari hazırladığı, işğalçı dövləti idarə etdiyi və asılılığında saxladığı halda Azərbaycanın asılılıqda olmaması, müstəqilliyi, təbii ki, həzm edilmir və edilməyəcək də. Təzyiqləri də qərəzi də təkcə Azərbaycan deyil, bütün dünya ictimaiyyəti yaxşı bilir və səbəbini başa düşür. Elə buna görə də, “Freedom House”-un hesabatı təkcə Azərbaycan deyil, beynəlxalq aləmdə də heç bir əhəmiyyət kəsb etmir. ABŞ-da hazırlanan bu hesabatı hazırlayan mərkəzlərin, bəzi dairələrin qeyri-azad elan etdiyi, ədalətsiz şəkildə Azərbaycanla eyni tərəziyə qoyduğu digər ölkələrə münasibəti də hamıya aydındır. Bu baxımdan, “Freedom House” hesabatını hazırlayanlar, əmin olsunlar ki, hazırladıqları hesabatın da, dəyərləndirmələrinin də heç kimin yanında zərrə qədər qiyməti yoxdur. Belə çıxır ki, mahiyyət etibarı ilə heçə tay hesab olunur.

### İnteqrasiyanı, əməkdaşlığı, inkişafı, sağlam rəqabəti gözü götürməyən və həzm etməyən qüvvələrin azadlıq barədə danışmağa zərrə qədər haqqı çatmır

Çindən İngiltərəyədək “Qədim ipək yolunun dəmir magistrallar üzərində bərpası”, görünür, kimlərinsə yuxusunu ərşə çəkib. Dünyada hazırda hökm sürən mürəkkəb şəraitdə ölkəmizin inteqrasiyaya, əməkdaşlığa meyilli olması, əldə olunan uğurları gözü götürməyənlərin reaksiyası təsdiq edir ki, nailiyyətlərimiz çoxlarını bərk narahat edir. Məhz bu narahatlığın təzahürü olaraq “Freedom House” təşkilatının qərəzli hesabatı da, beləcə ortaya çıxır və öz ədalətsiz mövqeyini, mütəmadi olaraq ifşa edir.

Sözügedən layihədə Çinin, İngiltərənin, Azərbaycanın iştirakından, avropalı müttəfiqlərinin dünya hegemonluğuna can atan Çinlə yaxınlaşmasından ABŞ-ın narahatlığını hiss etməmək mümkün deyil. Bu fövqəldövlətin layihənin maliyyələşdirilməsində iştirak etməkdən imtina etməsi həmin narahatlığı tam şəkildə təsdiq edir. İnteqrasiyanı, əməkdaşlığı, inkişafı, sağlam rəqabəti gözü götürməyən, həzm etməyən qüvvələrin azadlıq barədə danışmağa isə zərrə qədər haqqı çatmır.

ABŞ-ın Davosda keçirilən Dünya İqtisadi Forumundan imtina etməsini necə başa düşək? Azərbaycanın İran və Rusiya ilə birgə Şimal-Cənub layihəsinə tərəfdar çıxması, İranın da Xəzərin hüquqi statusunu tanımasına razılığı və Britaniyanın buradakı neft maraqlarını qəbul etməsinə, görünür, ABŞ-ın tamaşa etməyə heç niyyəti olmayıb. Ölkə başçımızın Davosda Dünya İqtisadi Forumunda iştirakı, ölkəmizi “Bir qurşaq, bir yol” layihəsində uğurla təmsil etməsi Çin-ABŞ ticarət savaşları fonunda Birləşmiş Ştatlardakı bir sıra dairələri heç cür qane etmir.

### Saxta hesabatlar tərtib edib dövlətlərin suverenliyinə müdaxilə etməyə çalışanlar azadlıq carçıları yox, çirkin niyyətlilərdir

Bir məsələ diqqəti, hər zaman cəlb edir ki, görəsən, dünya ölkələrinin daxili işlərinə müdaxilə edənlər, qarışanlar nə vaxtdan azadlıq carçıları olublar və buna onların nə dərəcədə haqqı çatır? Ölkələri, özü də heç bir əsas olmadan insan hüquq və azadlıqlarının pozulmasında ittiham etmək səlahiyyətləri nə vaxt verilib bu müdaxiləçilərə? Əgər belə bir səlahiyyət verilməyibsə, bu qiymətləndirmə, bu hesabatlar, əslində, nə deməkdir və nəyə xidmət edir? Tarixə ekskursiya etdikdə, görürük ki, bir vaxtlar Sovet dövlətinə qarşı çıxan dissidentləri dəstəkləməklə ABŞ-ın soyuq müharibə illərində ideoloji təbliğat vasitələrindən biri olduğunu “Freedom House” artıq təsdiqləyib. Üstəlik, büdcəsinin 62-80 faizini ABŞ dövlətindən alınan qrantlar təşkil edən bir təşkilatın nəyə və nə üçün xidmət etməsində qaranlıq olacaq bir məsələ qalmır.

Guya ki, azadlıq axtarışında olan təşkilatlar, xüsusən də, “Freedom House”, nədənsə, Azərbaycandakı mühiti heç nəzərə almaq niyyətində deyillər. Nəzərə almaq fikirləri belə yoxdur ki, ölkəmizdə azad internet fəaliyyət göstərir və əhalinin 75 faizi internet istifadəçisidir. Bəzi dırnaqarası azad hesab etdikləri ölkələrdə sosial şəbəkələr qadağan olunduğu halda, Azərbaycanda sosial şəbəkələr tam azad şəkildə istifadədədir və senzura belə yoxdur. Hazıra ölkəmizdə 2 milyondan artıq sosial şəbəkə istifadəçisi var. Sosial şəbəkələrdən azad və məhdudiyyətsiz şəkildə istifadə olunduğu halda, fikir, ideya azad şəkildə paylaşıldığı halda, hansısa təşkilat Azərbaycanı azadlığın pozulmasında, qeyri-azad ölkə olmaqda necə ittiham edə bilər? Yaxud ölkəmizin inteqrasiya, həmrəylik, kommunikasiyaların qovuşması proseslərində iştirakı deyil, çaxnaşma, münaqişə və müharibələr maraqlandıran təşkilat necə azadlıq carçısı hesab oluna bilər? Saxta hesabatlar tərtib edib dövlətlərin suverenliyinə müdaxilə etməyə çalışanlar azadlıq carçıları yox, çirkin niyyətlilərdir.

### “Freedom House” təşkilatının hesabatında ölkələrin azadlıq səviyyəsi həmin ölkələrin ABŞ-la yalnız müttəfiqlik səviyyəsinə görə qiymətləndirilir

“Freedom House” təşkilatının hesabatına baxanda, bir məsələnin də şahidi olmaq mümkündür ki, nədənsə, azad ölkələr yalnız ABŞ-la müttəfiq ölkələr hesab olunur. Yəni ölkələrin azadlıq səviyyəsi müttəfiqlik səviyyəsinə görə qiymətləndirilir. Məsələn, “qeyri-azad” ölkələr siyahısında olan Ukrayna bir anda tam azad ölkələr siyahısına keçib. Özü də korrupsiyanın səviyyəsinin həddindən artıq çox olduğu, kriminalın artdığı, əhalinin sosial durumunun tamamilə pisləşdiyi bir ölkə birdən-birə tam azad ölkələr siyahısında yer alır. Çünki Ukrayna Rusiyanın nəzarətindən ABŞ-ın nəzarətinə keçmək niyyətindədir və bu niyyətinə görə “Freedom House” öz hesabatında onu tam azad ölkələr siyahısına salmalı olur.

Rusiya kimi Federativ Respublikanı Birləşmiş Ərəb Əmirlikləri ilə eyni şkalaya qoyan “Freedom House” təşkilatı Federativ Respublika ilə mütləq monarxiyanı müqayisə edə də bilməmiş. Bəs mütləq monarxiyanın nə olduğunun fərqində olmayan, bilməyən, yaxud bilmək istəməyən təşkilatın hesabatı kimə maraqlı gələ bilər? Eyni zamanda, şəriət qaydaları ilə idarə olunan Yəmənin Rusiya ilə eyni şkalada olmasını bu təşkilat necə qərarlaşdırdı? Qeyri-əxlaqi davranışda şübhəli bilinənlərin şəriət qaydalarına uyğun daş-qalaq edildiyi ölkə Rusiya ilə eyni səviyyəyə malikdirmi? Bu şəkildə bölgü, bu cür şkalalara ayırma ABŞ-ın şəriət qaydalarına hörmətidir, yoxsa islam dünyasına simpatiyası? Zənnimizcə, islamofobiyanın baş alıb getdiyi dünyada, bu fobiyaya rəhbərlik edən fövqəldövlətin, onun qanadı altında olan “Freedom House” təşkilatının belə bir iddiada olması belə mümkün deyil.

### Ağ Evin maraqlarını həyata keçirərək təxribatçı və sifarişli hesabatlar ortaya qoyan “Freedom House” ABŞ hökumətinin pulları hesabına mövcuddur

Tənqidçilər də belə hesab edirlər ki, “Freedom House” təşkilatı Ağ Evin maraqlarını həyata keçirir, bu məqsədlə də təxribatçı və sifarişli hesabatlar ortaya qoyur. Bir sıra ölkələr bu təşkilata da, onun hesabatlarına da, nəinki məhəl qoymur, eyni zamanda, ölkələrinə məxsus xüsusi siyahıya da salınırlar. Məsələn, Rusiya bu təşkilatı, onun hesabatlarını “patriotik top-list” adlandırılan sənədə daxil edib və bu sənədə görə “Freedom House”-un Rusiya ərazisində fəaliyyəti arzuolunmaz hesab olunur. Bu da, sirr deyil ki, Qırğızıstan prezidenti Akayev 2005-ci ildə ölkəsində hazırlanan “rəngli inqilab”ın da maliyyə mənbəyinin “Freedom House” təşkilatı olduğunu bəyan etmişdi.

Əslində, “Freedom House” təşkilatına, onun hesabatlarına qarşı antipatiyanın mövcudluğunu təsdiq edən faktlar olduqca çoxdur və bu faktları sadalamağa bu qədər arqumentdən sonra artıq ehtiyac da duyulmur. Amma bir məqama toxunmaq yerinə düşərdi ki, çoxları “Freedom House” təşkilatını ABŞ hökumətinin pulları hesabına mövcud olan “yalançı QHT” hesab edir. Həqiqətən də, ABŞ hökuməti ilə müttəfiqlik nəzərə alınmasa, heç bir meyar olmadan qiymətləndirmə edib hesabat hazırlayan quruma “yalançı QHT” adı vermək ən doğru seçimdir. Bəli, “Freedom House” təşkilatı “yalançı QHT”-dir və buna görə də, nə digər ölkələri, nə də Azərbaycanı bu yalançı təşkilatın hesabatı maraqlandırmır və bu hesabatda da qeyd olunan qiymətləndirmələr heç bir əhəmiyyət kəsb etmir.

***İnam HACIYEV***

# MEHRİBAN ƏLİYEVA-İNSANLARA QAYĞININ MÖHTƏŞƏM MÜCƏSSƏMƏSİ

***İstənilən dövlət və cəmiyyətdə hər hansı istiqamətin inkişafı üçün yaradılmış şəraitin səmərəliliyi, bu sahədə yüzillər boyu davam edən təkamül proseslərinin nəticəsi o istiqamət üzrə ən böyük yüksəliş faktlarının müəllifi olmuş şəxsiyyətlərin həyat və fəaliyyətindən asılıdır.***

Bu mənada, Azərbaycanda qadın fəallığı ənənələrinin təşəkkül və inkişafına doğru min illərin o üzündən gələn çətin və şərəfli yol Azərbaycanın Birinci Xanımı Mehriban xanım Əliyevanın nəcib əməlləri və dünyanın Onun fəaliyyətinə verdiyi layiqli qiymətlə öz zirvəsində qərarlaşır.

Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və İSESCO-nun Xoşməramlı Səfiri, Yeni Azərbaycan Partiyası Sədrinin müavini...

Samir Mustafayev yazır: "Bunlar, sadəcə, bir insanın öz fədakar fəaliyyəti ilə qazandığı yüksək vəzifələr, fəxri titullar deyil, həm də bəşəriyyətin rifahına yönəlmiş xeyirxah əməlləri, gərgin zəhməti bahasına bütün bunları öz halal haqqına çevirmiş Mehriban xanım Əliyevanın timsalında, Azərbaycan qadınının yüksək potensialının yenidən kəşfidir. Azərbaycan qadınının layiq olduğu ucalıqlara yüksəlməsidir, qloballaşan dünyada Azərbaycan qadını üçün yeni imkanların açılmasıdır. Eyni zamanda, qadınla bağlı tarixən mövcud olan, qadın fəallığını müəyyən qədər məhdudlaşdıran stereotipləri ortadan götürən, Azərbaycan qadınının dəyişən zamana uyğunlaşmasını təmin edən böyük mənəvi dəstəkdir".

"Bu gün qadınlarımız təkcə ailə dəyərlərinin qoruyucusu deyil, onlar həm də ölkənin ictimai-siyasi həyatında fəal iştirak edirlər. Müasir qadınlarımız sosial baxımdan fəaldırlar və onların ictimai proseslərə təsirləri getdikcə artır. İctimai həyatın elə bir sahəsi yoxdur ki, orada qadınlar özlərinin ən yaxşı keyfiyyətlərini göstərməsinlər. Bizdə siyasətlə məşğul olan, dövlət qulluğunda, ümumiyyətlə, hər bir sahədə fəaliyyət göstərən qadınlar çoxdur. Onlar arasında bacarıqlı təşkilatçılara, müxtəlif səviyyəli rəhbər vəzifələrdə uğurla çalışanlara daha tez-tez rast gəlirik" deyən Mehriban xanım Əliyevanın fikrincə, cəmiyyətimizdə, tarixən elə şərait yaranmışdır ki, ictimai rəy qadını birinci sırada olan bərabərhüquqlu işgüzar tərəfdaş kimi qəbul etməyə hələ də tam hazır deyil. Əsrlər boyu kök salmış təfəkkür stereotipləri hələ çox güclüdür. "Mənə elə gəlir ki, rəhbər vəzifələr tutmaqda, elə başqa sahələrdə də kişilərlə qadınlar arasında rəqabət barədə danışmaq o qədər də düzgün olmazdı. Sağlam rəqabət şəraitində rəhbər mövqelər tutmaqda həlledici amil kişi və ya qadın olmaq deyil, peşəkarlıq, öz işinə sədaqət, lider keyfiyyətləri və nəciblikdir. İstər təyinatla, istərsə də seçkili qaydada tutulan bu və ya digər vəzifələrə namizədlərdən söhbət gedəndə, məhz bu xüsusiyyətlər nəzərə alınmalıdır".

Mehriban xanım Əliyevanın fikrincə, bu meyarlar sırasında bizim qadınlar yalnız lider keyfiyyətlərinə görə kişilərdən geri qalırlar. Rəhbər vəzifələrdə qadınların kişilərlə müqayisədə xeyli az təmsil olunmasının əsas səbəbi budur. Ona görə də, qadınların daha uğurla irəliləməsinə, onların rəhbər vəzifələr tutmasına gənc qadınlarda lider keyfiyyətləri və vərdişlərinin, özünənənam hissinin məqsədyönlü şəkildə tərbiyə olunması kömək edə bilər: "Əgər buna nail ola bilsək, hesab edirəm ki, qadınların rəhbər vəzifələrdə daha geniş şəkildə təmsil olunmasını çox gözləmək lazım gəlməyəcəkdir".

Mehriban xanım Əliyeva ölkəmizdə qadınlara qarşı ailədaxili və məişət zorakılığı hallarına rast gəlinməsinə təəssüflənir və qızların erkən yaşda zorla ərə verilməsi hallarını da qadınların çoxunun taleyini şikəst edən zorakılığın ən ağır nəticələrə gətirib çıxaran bir forması hesab edir. "Belə hallara qarşı mübarizədə qanunun gücündən tam istifadə etmək lazımdır. Lakin gender zorakılığının və erkən nikahların çox ağır nəticələrini insanlara izah edən ciddi maarifçilik işinin aparılması da zəruridir. Bu məsələdə kütləvi informasiya vasitələrinin də imkanları böyükdür".

Bütün bunlar Azərbaycan qadınını layiq olduğu mövqedə görmək istəyən, qadın adına dəyər gətirən şəxsiyyətin dünyanın əksər məkanlarında qadınların üzləşmiş olduqları bəlli problemlərə münasibətidir. Bu problemdən çıxış yolları isə onun həyat və fəaliyyət formulunda öz ifadəsini tapmışdır: əgər güclü olmaq, həyatda yüksəlmək istəyirsənsə, başqalarına səadət gətirmək üçün çalışacaqsan.

Bunun ən parlaq örnəyini də Mehriban xanım Əliyeva özünün həyat və fəaliyyəti ilə yaradır. Mehriban xanım Əliyeva zəmanəmizin qəhrəmanlarındandır, insanlara etinasızlıq, laqeydlik Onun xarakterinə yaddır, əməlləri ilə ən yaxşıların ilk sırasındadır.

Daşıdığı statusa görə, o, siyasət adamı sayılsa da, siyasətdə iştirakı xeyli fərqlidir, Onun üçün ən böyük siyasət insanların rahat, firavan yaşayışı, əmin-amanlığıdır. Onun üçün insan amili hər şeydən öndədir. O, insanlara böyük saygı ilə, hörmətlə yanaşır. Onun əməllərinin mayasında böyük ürək, işıqlı təfəkkür və zəngin intellekt dayanır.

Mehriban Əliyeva fəaliyyəti ilə insanların ağıl, düşüncə, ürək və göz yaddaşında heç vaxt pozulmayacaq bənzərsiz bir lövhə yaradıb. Bu lövhə ən mahir rəssam tərəfindən min bir sevgi ilə kətana köçürülən, dünyanın məşhur sərgi salonlarını bəzəyən, tamaşaçıların qəlbini riqqətə gətirən ən möhtəşəm tablodan, portretdən də qiymətlidir. Çünki bu portreti zaman özü çəkir.

Mehriban xanım Əliyevanın taleyində çox yerdə birinci və aparıcı olmaq qisməti var. O özü də bu qismətin fərqindədir. Bu şansın məsuliyyətini dərk etdiyindəndir ki, indi əsl Azərbaycan qadınının simvoluna çevrilib, bütün dünyaya Azərbaycan qadınının son dərəcə gözəl nümunəsini sərgiləyir. Fəaliyyəti ilə sübut edir ki, bu gün Azərbaycan qadını güclü olmalıdır. Güclü olmaqdan ötrü isə, hər kəsdən daha bilikli, daha adil, daha ağıllı, daha intellektli olmaq lazımdır. Qəlbimiz hər kəsinkindən daha çox insan sevgisi ilə dolu olmalıdır. Bax, o zaman bütün çətinlikləri aradan qaldırmaq mümkünləşər.

S.Mustafayevin qeyd etdiyi kimi, Mehriban xanım taleyinə, qismətinə düşən dövrün nəbzini tutaraq ağlı, müdrikliyi, ən əsası, bunu gözəlləşdirən əməlləri ilə onun fövqünə ucalmağı bacarıb. O, sadəliyi və xeyirxahlığı ilə, qısa zamanda, bütün Azərbaycan xalqının və bəşəriyyətin tərəqqipərvər kəsiminin böyük sevgisini qazanıb. Dünya bu zərif, incə xanımın insan sevgisi ilə dolu ürəyinə heyrandır, Onun təəssübkeşliyi, xeyir-duası, dəstəyi ilə həyata keçirilən qlobal layihələr böyük rəğbət qazanmışdır. O, indi dünyada zəif və zərif cinsin ən güclü, ən qüdrətli simalarından biri kimi tanınır və qəbul olunur. O, indi dünyanın ən gənc və sevilən, hörmətlə yanaşılan birinci xanımlarındandır.

Azərbaycanda milli dövlətçilik tariximizdə, ilk dəfə olaraq, Birinci Xanım institutunu formalaşdıran Mehriban Əliyeva az zaman ərzində Azərbaycan qadınının kimliyini bütün dünyaya göstərdi.

Alimlər insanın bioloji varlıqdan şəxsiyyətə çevrilməsində, onun inkişafında, fitri istedadının püxtələşməsində genetik amillərin rolunu çoxdan təsdiqləyiblər. Mehriban xanım Əliyevanın həyatında da bu amillərin rolu danılmazdır. O, ziyalı ailəsində doğulub. Valideynləri Azərbaycan elmində və ədəbiyyatında ağır çəkiyə malik insanlardır. Babaları da ədəbiyyatımızda, söz sənətimizdə izi olan, sözü, səsi eşidilən, qəbul edilən, yüksək vətəndaşlıq nümunəsi ilə seçilən ziyalılar olub.

O, həm də Azərbaycan tarixində yeri əbədiləşən müdrik bir dövlət başçısının, ailəsinin üzvü olub və tale Onu həm də Azərbaycanın Birinci Xanımı edib.

Amma xalqın sevimli övladı olmaq, millətin sevgisini qazanmaq taleyin, qismətin işi deyil - bu məhəbbəti qazanmaq lazımdır. Təktək adama nəsib olan bu sevgini O öz əməlləri, ağlı, iradəsi, qabiliyyət və bacarığı ilə əldə edib.

O öz millətinə, xalqına olduqca saf, insanlara sadə, səmimi, təmənnasız münasibətlə buna nail olub. Bu gözəl münasibət Onun ən qiymətli sərvətidir.

Heç şübhəsiz, insan müəyyən zaman və məkanla, yaşadığı ətraf mühitlə sıx bağlıdır. Platon deyib: "Heç kim təsadüfən yaxşı insan olmur". Mehriban xanım Əliyevanın fəaliyyətində də sələflərinin izi var. O, genetik kodu, qan yaddaşı ilə Ona ötürülən əməllərə sadiqdir.

Ata-baba yolunu onların adına layiq, hələ ondan da artıq davam etdirmək, təbii ki, hər övladın, hər xələfin işi deyil. Babası Mir Cəlal Paşayevin ədəbiyyatımızın inciləri sırasında özünə yer alan, hər birimizin təkrar-təkrar oxuduğu, dəyişən zamanlarda belə milli- mənəvi dəyərlərə söykənən təsir gücünü, əhəmiyyətini itirməyən təkcə bir əsərini - "Bir gəncin manifesti"ni yada salaq. Əsl ziyalılıq etalonu olan bu yazıçının, bu söz adamının, bu alimin həmin əsəri gənclər üçün tərbiyə məktəbi idi və indi də bu rolu oynamaqdadır. "Bir gəncin manifesti"ndən hələ də öyrənəcəklərimiz çoxdur. Bir fakt da danılmazdır ki, belə bir əsər yalnız öz millətinə, xalqına, onun mənəviyyatına, mental dəyərlərinə sadiq olan bir insanın qələmindən çıxa bilərdi. Ana babası Nəsir İmanquliyevin jurnalist məktəbini keçən hər bir jurnalist yaxşı bilir ki, Nəsir müəllim bu sahəyə iliyinə qədər bələd olan peşəkar olmuşdur. Onun nəzəri-təcrübi məktəbində dərs alıb, ondan nəsə öyrənməmək qeyri-mümkün idi. Aida İmanquliyeva və Arif Paşayev - bu iki alimin, iki ziyalının da Azərbaycan elmi, Azərbaycan təhsili qarşısında sanballı xidmətləri heç kimə sirr deyil. Mehriban Əliyeva onların ailə tərbiyəsini görüb, onların nəsihətlərini, tövsiyələrini eşidib. Sonra da Azərbaycan xalqının böyük övladı, müdrik siyasətçi Ulu Öndər Heydər Əliyevin və bənzərsiz alim, gözəl insan, akademik Zərifə Əliyevanın gəlini kimi onların məsləhətlərini dinləyib. Hər iki ailədə gördüklərini, öyrəndiklərini yaddaşına yazıb. Azərbaycana, azərbaycançılığa bitib-tükənməyən sevgisi də bu yaddaşdan qaynaqlanır.

Mehriban xanım Azərbaycan xalqının elçisidir, xalq yalnız sevdiyi insanlara bu müqəddəs kəlməni etibar edir, onu "elçi" adlandırır, onu özünə vəkil seçir.

Tarix boyu Azərbaycanı dünyada, beynəlxalq aləmdə Mehriban Əliyeva kimi təbliğ edən və şərəfləndirən ikinci qadın olmayıb. Bu müdriklik və xoşbəxtlik Mehriban Əliyevanın nəsibidir. Yalnız siyasəti mərhəmətlə, şəfqətlə çulğalaşdıran, XXI əsrin xoş məramlar elçisinə çevrilən, bütün dünyada bu məramın carçısı kimi tanınan, qəbul edilən və sevilən Mehriban xanım Əliyeva bu işin öhdəsindən böyük məharət və ustalıqla gəlib.

Şəfqət dolu "qızıl ürəyi", ölkənin səhiyyə, mədəniyyət, təhsil sistemlərində gördüyü işlər Mehriban Əliyevanı Azərbaycan xalqının ürəyinə yazıb. Bu ürəkdə Onun yeri əbədidir.

Mehriban Əliyeva əsl Azərbaycan xanımının simvoludur. Onun fəaliyyətinin kökündə mənsub olduğu xalqa və millətə sevgi dayanır. Mehriban Əliyeva bütün hərəkətləri, bütün qərarları ilə millidir. Vətəninə xidmət edir, onun tərəqqisini arzulayır, sabahının qayğısına qalır, mədəniyyətinin və təhsilinin inkişafına çalışır.

Bütün bunlar Mehriban xanım Əliyevanın zaman adlı rəssamın öz fırçası ilə yaratdığı portretinin yalnız müəyyən cizgiləridir. Həyat gələcəyə doğru irəlilədikcə, bu portretə yeni cizgilər, çalarlar əlavə olunur, Onun sevgi, mərhəmət, xeyirxahlığın rəsmi kimi qəlblərdə özünə əbədi yer tutan obrazı daha da mükəmmələşir.

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 12 fevral

# Son yetmiş ildə insanların ömrü 22 il uzanıb

Alimlərin tədqiqatına əsasən, 1950-ci ildən sonra uşaq ölümlərinin səviyyəsi 7 dəfə azalıb, insan ömrünün orta uzunluğu isə 20 ildən çox artıb. AZƏRTAC xəbər verir ki, "Lancet" jurnalı bu barədə səhiyyə sahəsində təşəbbüslərin insan həyatının uzadılmasına təsirini tədqiq edən "Global Burden of Disease" (GBD) monitorinq layihəsi çərçivəsində əldə olunan göstəricilərə istinadla məlumat yayıb.



GBD layihəsi BMT, səhhətin göstəricisini tədqiq edən Sietl institutu, Bill və Melinda Qeyts fondu tərəfindən mütəmadi aparılan ən miqyaslı monitorinq layihəsidir. Layihəyə dünyanın 195 ölkəsini, onların tibbi xidmətlərini və aparıcı elmi mərkəzlərini təmsil edən mütəxəssislər cəlb olunub. Onlar son illərin statistikasından əlavə, səhiyyə sisteminin vəziyyətində və planetin demoqrafiyasında dəyişiklikləri əks etdirən daha uzunmüddətli trendləri də tədqiq edirlər. Bu qəbildən olan son tədqiqatlar seriyasında 1950-ci ildən 2017-ci ilə qədər insanların həyatlarının necə dəyişməsi qiymətləndirilib.

Analizin nəticələri müasir dövrümüz üçün xarakterik olan müharibələr, iqtisadi sarsıntılar və başqa problemlərə baxmayaraq, nikbin görünür. Belə ki, kişilərin orta həyat uzunluğu 48 ildən 70,5 ilədək, qadınların orta həyat uzunluğu isə 53 ildən 76 ilə qədər uzanıb. 1950-ci ildə hər beş uşaqdan biri həyatlarının ilk beş ilində ölürdü. Hazırda isə bu göstərici 3,9 faiz səviyyəsində qərarlaşıb.

Bununla belə, yeni problemlər də ortaya çıxıb. Məsələn, silahlı münaqişələr, müharibələr və terror hadisələri nəticəsində həlak olanların sayı demək olar ki, iki dəfə artıb. Piylənmənin səbəb olduğu xəstəliklərdə də oxşar vəziyyət yaranıb. Dünyanın demək olar ki, bütün ölkələrində artıq çəkili insanların sayı artır və bu da il ərzində bir milyondan çox insanın diabet xəstəliyi səbəbindən həyatını itirməsi ilə nəticələnir.

# Dünyada 250 min uşaq hərbi münaqişələrə cəlb olunub



Dünyanın müxtəlif regionlarında on minlərlə yeniyetmə oğlan və qızdan uşaq əsgər kimi sui-istifadə edilir. AZƏRTAC xəbər verir ki, bu barədə məlumatı BMT-nin Uşaq Fondunun (UNICEF) Avstriya nümayəndəliyi 12 fevral - Uşaq əsgərlərdən istifadəyə qarşı beynəlxalq mübarizə günü münasibətilə yayıb. Məlumatda bildirilir ki, hazırda dünyanın müxtəlif bölgələrində, ümumilikdə, 250 min uşaq hərbi əməliyyatlara əsgər kimi cəlb edilib. Xüsusilə, Cənubi Sudan, Mərkəzi Afrika Respublikası, Konqo Demokratik Respublikası, Somali, Suriya və Yəməndə uzunmüddətli münaqişələrdə uşaqlardan döyüşçü kimi sui-istifadə edilir. Eləcə də Əfqanıstan, Mali və ya Myanmarda uşaqlar hərbi birləşmələrə yardımçı qüvvə kimi xidmət edirlər. Bununla yanaşı, uşaqlardan kamikadze kimi istifadə və onlara qarşı cinsi istismar da beynəlxalq təşkilatın tənqid hədəflərinə daxildir.

UNICEF beynəlxalq ictimaiyyəti uşaq hüquqlarının ən ağır formada pozulmasına qarşı çıxmağa və cəbhələr arasında qalan uşaqların hüquqlarının qorunması üçün həmrəylik göstərməyə çağırıb.

## ELAN

Mustafayeva Zinaida Sergeyevnaya məxsus Yasamal rayonu, Z.Adıgözəlov küçəsi, ev 21-də yerləşən (keçmiş Aşağı Dağlıq / Vidadi küçəsi, 21/12) Qeydiyyat nömrəsi 1110021427 fərdi yaşayış evinə verilmiş ÇIXARIŞ və Texniki pasport itdiyi üçün etibarsız sayılır.

# Formula 1 Azərbaycan Qran-Prisinə 46 ölkədən bilet alınıb

Formula 1 Azərbaycan Qran-Prisinin Bakıda təşkilinin 2023-cü ilədək uzadılmasına dair yeni müqavilənin imzalanmasından sonra yarışa beynəlxalq maraq kəskin şəkildə artıb. AZƏRTAC xəbər verir ki, bu sözləri Formula 1 yarışlarının Azərbaycanda təşkilatçısı "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin kommersiya şöbəsinin rəhbəri Bülent Özərdim deyib.

B.Özərdim bildirib ki, müqavilənin müddətinin uzadılması yerli Formula 1 həvəskarları ilə yanaşı, xarici azarkeşlər tərəfindən də böyük maraqla qarşılanıb. Belə ki, yeni müqavilə imzalandıqdan sonra satışın tempində iki dəfəyədək artım qeydə alınıb. Bu artım əsasən Rusiya və Böyük Britaniyadan olan avtoidman həvəskarları hesabına formalaşıb.

BŞH-nin rəsmisi qeyd edib ki, bilet satışları ötən illə müqayisədə daha yaxşıdır. Keçən ilin eyni dövrü ilə müqayisədə bilet satışında daha böyük artım müşahidə olunur. İndiyədək 46 ölkədən bilet alınıb və bu rəqəm hər ötən gün artaraq daha geniş coğrafiyanı əhatə edir. Hazırda Rusiya və Böyük Britaniyadan sonra Azərbaycan Qran-Prisinə ən çox maraq göstərən ölkələr Gürcüstan, Avstriya, Hollandiya, Polşa, Birləşmiş Ərəb Əmirlikləri və Finlandiyadır. Formula 1 Azərbaycan Qran-Prisi aprelin 26-28-də keçiriləcək.



# "Böyük dəbilqə" turnirində 18 cüdoçumuz yarışacaq

Fevralın 22-də Almaniyanın Düsseldorf şəhərində cüdo üzrə "Böyük dəbilqə" turniri keçiriləcək. SİA Beynəlxalq Cüdo Federasiyasının saytına istinadla xəbər verir ki, Azərbaycanı bu nüfuzlu yarışda 18 idmançı - 12 kişi və 6 qadın cüdoçu təmsil edəcək.

Xatırladaq ki, Azərbaycanın cüdo komandası fevralın 9-10-da Parisdə keçirilmiş "Böyük dəbilqə" turnirini 1 gümüş, 1 bürünc medalla başa vurub. Komandamızın aktivinə gümüş medalı İrina Kindzerska (+78), bürünc medalı isə Uşangi Kokauri (+100 kq) yazdırıblar. Düsseldorfdakı "Böyük dəbilqə" turnirində 99 ölkədən 734 cüdoçu (432 kişi, 302 qadın) mübarizə aparacaq.

# Azərbaycanlı atlet beynəlxalq turnirin qalibi olub




Azərbaycanlı atlet Nazim Babayev Fransanın Metz şəhərində keçirilən beynəlxalq elit turnirin qalibi adını qazanıb. Azərbaycan Atletika Federasiyasından bildiriblər ki, turnirdə N.Babayev üçtəkanla tullanma yarışında 16,67 metr nəticə ilə birinci yeri tutub. O, bu nəticə ilə fransalı atlet Mamadu Dia Çerif (16,09 metr) və belaruslu Dimitri Platinskini (15,87 metr) qabaqlayıb.

# Sulşer yeni mövsümdə də "Mançester Yunayted"i çalışdıracaq



İngiltərənin "Mançester Yunayted" klubunun baş məşqçi vəzifəsini müvəqqəti icra edən Ole Qunnar Sulşer yeni mövsümdə də komandanı çalışdıracaq. TASS agentliyi xəbər verir ki, İngiltərə Premyer Liqasının 26-cı turunda "Fulhem" klubunu məğlub edəndən sonra baş məşqçi və agenti komandanın idarə heyətin üzvləri ilə görüşüblər. Klubun həmsədri Avram Qleyzer "The Sun" nəşrinə verdiyi açıqlamada, Sulşerin yeni mövsümdə klub ilə uzunmüddətli müqavilə imzalayacağını qeyd edib. Sözləşmə ictimaiyyətə cari mövsümün sonunda bildiriləcək.

Qeyd edək ki, Ole Qunnar Sulşer 2018-ci il dekabrın 19-da Jose Mourinyo vəzifəsindən azad edildikdən sonra "Mançester Yunayted" klubuna müvəqqəti baş məşqçi təyin olunub. Norveçli mütəxəssisin 11 oyunluq məğlubiyyətsiz seriyası davam edir. O, klub ilə 10 qələbə və 1 heç-heçə edib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500